## Hulusi Akar: "Zəngəzur dəhlizinin açılması hər birimizin xeyrinə olacaq"



**"Zəngəzur dəhlizinin açılması hər birimizin xeyrinə olacaq".**

Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Qarsda keçirilən "Qış təlimi-2023"ün bağlanış mərasimində jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bu, regionda sülh və sabitliyə əlavə töhfə verər: "Qış təlimi-2023" uğurla başa çatdı. Bu təlim Türkiyə ordusunun səviyyəsini göstərir. Təlimlərin belə bir şəraitdə uğurla keçirilməsindən qürur duyuram. Bu, Türkiyə ordusunun hər bir şəraitdə döyüşə necə hazır olduğunu göstərdi. Təlimə qatılan dost və qardaş ölkələri də təbrik edirəm".

## 52 nümayəndə heyəti hücumu pisləyib

ATƏT-in iclasında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumla bağlı məsələ qaldırılıb

**ATƏT-in Daimi Şurasının fevralın 2-də keçirilən iclasında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumla bağlı məsələ qaldırılıb.**

52 nümayəndə heyəti iclasda bu hücumu pisləyib, həlak olan Azərbaycan vətəndaşının ailəsinə başsağlığı verib və hadisəni təcili araşdırmağa çağırıblar.

*Azərbaycanın ATƏT yanındakı daimi nümayəndəsi, səfir Rövşən Sadıqbəyli sosial media hesablarında bu barədə paylaşımında həmin nümayəndə heyətlərinə təşəkkür edib.*


❒ № 20 (5781), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 fevral 2023-cü il (cümə)




# PUA-lardan istifadə olunub

### Azərbaycan hərbçiləri şərti hədəfləri tam dəqiqliklə vurublar

**Türkiyənin Qars şəhərində keçirilən "Qış təlimi-2023" təlimlərində Azərbaycan hərbçiləri şərti hədəfləri tam dəqiqliklə vurublar.**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, təlimlərdə, həmçinin koordinasiyalı fəaliyyətin təmin edilməsi, qoşunların kommunikasiya imkanlarının təkmilləşdirilməsi məsələləri diqqətdə olub.

Şərti hədəflərin vurulmasında, həmçinin PUA-lardan istifadə olunub.

Təlimlər bu tapşırıqların icrası ilə başa çatıb.

Təlimləri Türkiyə, Azərbaycan və Gürcüstanın müdafiə nazirləri - Hulusi Akar, Zakir Həsənov və Cuanşer Burçuladze birlikdə təlimləri izləyib.

*Xatırladaq ki, hazırlıqlarda 17 fərqli ölkədən 2 113 nəfərlik şəxsi heyət iştirak edirdi.*



## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

Rumıniya-Azərbaycan əməkdaşlığı yeni mərhələyə daxil olur

**Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis mətbuata bəyanatlarla çıxış ediblər.**

**Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.**

*Prezident İlham Əliyevin bəyanatı*

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlamaq istərdim, Azərbaycana xoş gəlmisiniz.

(səh.2)

## Terror təhlükəsi bəhanədir

Süleyman Soylu: "Konsulluqların bağlanması Türkiyəyə qarşı psixoloji müharibədir"



**Qərb ölkələri heç bir sübut təqdim etmədən terror təhlükəsi bəhanəsi ilə diplomatik nümayəndəliklərini bağlayaraq Türkiyəyə qarşı "psixoloji müharibə" aparırlar. Bunu Türkiyə Daxili İşlər Nazirliyinin rəhbəri Süleyman Soylu bildirib.**

"ABŞ və Qərb bizim müstəqil və azad olmağımızı istəmir. Onlar 60 milyon turist qəbul etməyi planlaşdırdığımızı və 46 milyard dollar turizm gəliri əldə etdiyimizi açıqladığımız gün bu psixoloji müharibəyə başladılar", - nazir deyib.

(səh.2)

# "Ermənistan Azərbaycanın ərazilərini işğal etmişdi"

## Lavrov: "Azərbaycan torpaqlarını geri qaytardı"



**Rusiya xarici işlər naziri Sergey Lavrov "Rossiya-24" telekanalına müsahibəsində yarımçıq da olsa bir sıra həqiqətləri dilə gətirib.**

Rusiya XİN başçısı bildirib ki, Ermənistan Azərbaycanın ərazilərini işğal etmişdi və Azərbaycan torpaqlarını geri qaytardı. Lavrov KTMT missiyasının Ermənistanın Azərbaycanla sərhəd hissəsində yerləşdirilməsi məsələsinə də toxunub:

"Ermənistan və Azərbaycan Qafqazda vəziyyətin stabilləşdirilməsi yollarını axtarmağa davam edərkən KTMT kömək etməyə hazırdır. Ötən ilin sentyabrında toqquşma zamanı hər iki tərəfdən 300-ə yaxın insan həlak olmuşdu. Biz Ermənistanın xahişini aldıq.

(səh.4)

# Azərbaycan Avropaya daha yaxın olacaq

### Zəngin yaşıl enerji potensialı ölkəmizin dünyada önəmini daha da artırır



**Bu gün Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçiriləcək.**

Bu mötəbər tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələrinin iştirakı nəzərdə tutulur.

(səh.3)



## Laçın yolunda sülhməramlıların 75 avtomobili maneəsiz keçib

**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 1 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

"Report"un aksiya keçirilən ərazideki əməkdaşı xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

Belə ki, 1 minik maşını Laçından Xankəndi istiqamətinə maneəsiz hərəkət edib.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

*Bununla da gün ərzində Xankəndi-Laçın yolunda maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 75-ə çatıb.*

## 5 nəfər vəfat edib

35 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 35 yeni yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 828 018 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 817 739 nəfər müalicə olunaraq sağalıb, 10 092 nəfər vəfat edib, aktiv xəstə sayı 187 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 834, hazırkı dövrədək isə 7 491 233 test aparılıb.*

## Azərbaycanda bahalı avtomobillərə tələbat azalıb



**2022-ci ildə Azərbaycanda avtomobil bazarında müxtəlif kateqoriyalı avtomobillər üzrə qiymət artımları müşahidə olunub.**

Bu barədə Trend-ə İqtisadi və Sosial İnkişaf Mərkəzindən (CESD) məlumat verilib.

Mərkəz tərəfindən keçirilən monitorinqə əsasən, qiyməti 30 min manata qədər olan avtomobillərin qiyməti 2022-ci ildə 8.5 faiz yüksəlib. Aİ-95 markalı benzindən istifadə edən və daha bahalı avtomobillərə tələbin azalması müşahidə olunsa da həmin avtomobillərin qiymətində il ərzində 3.4 faiz artım qeydə alınıb.



## "Atamın gənc yaşında ölümünə də erməni həkimlər bais olub"

Telli Pənahqızı: "Bu saat məni aparsalar, gözübağlı gedib evimizin yerini taparam. Məktəbimizin yerini taparam"

(səh.3)



## Naxçıvan-Türkiyə quru sərhədi açılıb

Avtomobillərin keçidinə icazə verilməsi Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu ilə əlaqədardır

(səh.4)



# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

## Rumıniya-Azərbaycan əməkdaşlığı yeni mərhələyə daxil olur

**Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Klaus Yohannis mətbuata bəyanatlarla çıxış ediblər.**

**Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.**

*Prezident İlham Əliyevin bəyanatı*

-Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlamaq istərdim, Azərbaycana xoş gəlmisiniz. Biz keçən ay Sizinlə Buxarestdə görüşmüşdük və şadam ki, bir aydan sonra Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz. Bu, onu göstərir ki, ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq çox fəaldır və müzakirə olunan məsələlər hər iki ölkənin maraqlarına cavab verir.

Rumıniya və Azərbaycan uzun illər ərzində əlaqələrini strateji tərəfdaşlıq əsasında inkişaf etdirirlər. Strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bu gün müzakirə olunan və həll etdiyimiz məsələlər doğrudan da strateji əhəmiyyət daşıyır. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu bir daha göstərir.

Eyni zamanda, ticari-iqtisadi sahələrdə də nəticələr var. Ticarət dövriyyəsi iki dəfədən çox artsa da, hələ ki, istədiyimizə uyğun deyil. Çünki ticarət dövriyyəmizin böyük hissəsini Azərbaycandan Rumıniyaya ixrac edilən xam neft təşkil edir. Biz ticarət dövriyyəmizin şaxələndirilməsi üçün əlavə addımlar atacağıq və ümid edirəm ki, hökumətlərarası komissiyanın fəaliyyəti məhz bu məqsədi güdəcək. Komissiya keçən il Bakıda görüşüb, bu il isə Buxarestdə görüşəcək. Beləliklə, ticari-iqtisadi sahədə də yaxşı nəticələr ola bilər.

Energetika, əlbəttə ki, təkcə Rumıniya-Azərbaycan əlaqələrinin yox, bütövlükdə dünya gündəliyinin mərkəzində olan məsələdir. Uzun illər ərzində Azərbaycanın neft şirkəti SOCAR Rumıniyada fəaliyyət göstərir, 70-dən çox yanacaqdoldurma stansiyası və bir neçə yanacaq deposu var. Yəni, SOCAR-ın Rumıniyada fəaliyyətinin artıq çox gözəl tarixçəsi vardır.

İndi isə bizim əməkdaşlığımız yeni mərhələyə çıxır. Buxarestdə olarkən təbii qazın Rumıniyaya çatdırılmasına dair saziş imzalanmışdır. Beləliklə, Azərbaycan qazı Avropa məkanında yeni ünvana çatacaq və bununla paralel olaraq, Rumıniya imkanlarından istifadə edərək digər Avropa ölkələrinə Azərbaycan qazı nəql ediləcəkdir.

Biz isə iki il bundan əvvəl Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP layihəsini uğurla icra etdik və Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrildik. Bunu Avropa İttifaqına rəhbərlik edən şəxslər qeyd edirlər. Keçən il Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış təbii qaz üzrə strateji Tərəfdaşlıq Memorandumu bunu bir daha göstərir. Biz öz qaz ixracatımızı sürətlə artırırıq və ilk növbədə, Avropa məkanına.

***

**Sonra Rumıniya Prezidenti bəyanatla çıxış edib.**

*Prezident Klaus Yohannisinn bəyanatı*

-Cənab Prezident, təşəkkür edirəm.

Bu gün burada olmağımdan böyük şərəf duyuram. Bu, mənim ölkənizə ilk rəsmi səfərimdir. Cənubi Qafqaz bölgəsi həm Rumıniya, həm Avropa İttifaqı üçün mühüm əhəmiyyət kəsb edir. Dəvətə və qonaqpərvərliyə görə cənab Prezident Əliyevə təşəkkür edirəm.

Azərbaycan Cənubi Qafqaz bölgəsində ilk ölkədir ki, Rumıniya onunla əməkdaşlığını strateji tərəfdaşlıq səviyyəsinə qaldırıb, bu, 2009-cu ilə təsadüf edir. Bununla yanaşı, bizim ölkəmiz Avropa İttifaqının ilk üzvüdür ki, Azərbaycanla strateji tərəfdaşlıq haqqında belə bir sənəd imzalayıbdır.

Bu gün cənab Prezident İlham Əliyevlə biz mühüm siyasi məsləhətləşmələr apardıq. Sabah mən cənab Prezidentlə birlikdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında iştirak edəcəyəm.

Rumıniya ilə Azərbaycan 30 il ərzində gözəl diplomatik və siyasi münasibətlərə malikdir. 2022-ci ildə bunun çox güclü bir dinamikası baş verdi və cənab Prezident Buxarestə səfər etdi. Həmin səfər zamanı biz dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş imzaladıq.

Biz Rumıniya olaraq ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirməyə və mühüm strateji əhəmiyyətə malik regional layihələrin icrasına hazırıq. Biz enerji, ticarət, sərmayə qoyuluşu, rəqəmsallaşma və kənd təsərrüfatı sahələrində əməkdaşlığa hazırıq.

Mən cənab Prezidentə təşəkkür edirəm ki, Azərbaycan yanvar ayından etibarən Rumıniyaya əlavə qaz həcminin nəqlinə başlayıb. Sabah hər iki ölkənin dövlət neft şirkəti ”Romqaz” və SOCAR yeni sazişə imza atacaqlar. Həmin sazişə əsasən, 2023-2024-cü illərdə bizim ölkəyə əlavə qaz nəql ediləcək. Həm Cənub Qaz Dəhlizi və həm də gələcək yaşıl enerji ilə bağlı Qara dənizin altı ilə inşa ediləcək layihə Azərbaycanın bərpaolunan enerji mənbələrini Avropaya gətirəcək. Hər iki layihə Avropa İttifaqının rəhbərliyi tərəfindən ciddi şəkildə dəstəklənir. Bu məsələləri biz cənab Prezident Əliyevlə müzakirə etdik.

# ABŞ uğurlu əməkdaşlıqdan məmnundur

## Vaşinqton əvvəlkitək Azərbaycanın enerji layihələrinə dəstək verir



**Prezident İlham Əliyev fevralın 2-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Laura Loxmanı qəbul edib. Dövlət başçısı ötənilki toplantıda qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi baxımından yaxşı nəticələrin əldə olunduğunu qeyd edib.**

Prezident hazırda enerji diplomatiyamız qarşısında yeni vəzifə və tapşırıqların müəyyən edildiyini diqqətə çatdıraraq, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında səmərəli müzakirələrin aparılacağına əminliyini ifadə edib. Ölkə rəhbəri Cənub Qaz Dəhlizinin qoyduğu bünövrənin bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığını vurğulayıb. Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid sektorunda, eləcə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bu xüsusda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və ”Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş”in icrası üzrə Rəhbər Komitənin ilk iclasının da keçirilməsinin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev hər iki tədbirin bir-birini tamamladığını deyib. Bildirib ki, Cənub Qaz Dəhlizinin qoyduğu bünövrə bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaradır. Azərbaycanın Xəzər dənizinin ölkəmizə aid sektorunda, eləcə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edən Prezident bu xüsusda Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və ”Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair Saziş”in icrası üzrə Rəhbər Komitənin ilk iclasının da keçirilməsinin əhəmiyyətini qeyd edib. Hər iki tədbirin bir-birini tamamladığını bildirib.

Xanım Laura Loxman Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasının əhəmiyyətini vurğulayıb. O, Azərbaycanın Cənub Qaz Dəhlizi vasitəsilə Avropa ölkələrinin enerji təminatına əsaslı töhfələr verdiyini qeyd edib. Qonaq Cənub Qaz Dəhlizinin yaratdığı təməllər əsasında bərpaolunan enerji, o cümlədən yaşıl hidrogen sahəsində yeni əməkdaşlıq perspektivlərinin meydana çıxdığını qeyd edib. Bu layihələrin həyata keçirilməsində ölkəmizin vacib rol oynadığını bildirib. O, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması münasibətilə təbriklərini çatdırıb. Görüşdə ABŞ-nin Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə göstərdiyi davamlı dəstək yüksək qiymətləndirilib və ABŞ ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olunub.

**Politoloq Elxan Şahinoğlu deyib ki, Vaşinqton əvvəlkitək Azərbaycanın enerji layihələrinə dəstək verir:** ”Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi fonunda Avropanın Azərbaycanın resurslarına ehtiyacı artıb. Avropanın Rusiyanın enerji asılılığından azalmasında Azərbaycanın artan rolu ABŞ-nin maraqlarına cavab verir.

ABŞ-dən Azərbaycanla bağlı daha bir xəbər gəlib. Dövlət katibi Entoni Blinken Luis Bononu ABŞ-nin Qafqaz danışıqları üzrə baş məsləhətçisi təyin edib. Luis Bono yeni vəzifəsinə qədər ABŞ-nin Vyanadakı Beynəlxalq Təşkilatlar yanında missiya rəhbərinin müavini olub. Bundan başqa Lusi Bono ABŞ-nin Avropa İttifaqındakı və BMT-dəki nümayəndəliklərində, həmçinin Berlin və İslamabaddakı ABŞ səfirliklərində də çalışıb. Vaşinqton Minsk Qrupundan imtina edib, Qarabağla məşğul olmaq istəmir, əsas istəyi Azərbaycanla Ermənistan arasında barış əldə etməkdir. Bu, Azərbaycanın da maraqlarına uyğundur”.

**İsmayıl Qocayev**




## Naxçıvan Universitetinə yeni rektor təyin edilib

**Naxçıvan Universitetinə yeni rektor təyin edilib.**

Trend-in məlumatına görə, bu vəzifəyə Kazımov Anar Altay oğlu təyin edilib.

Əvvəllər Naxçıvan Dövlət Universitetində prorektor vəzifəsində çalışan Anar Kazımov Naxçıvan Universiteti təsisçisinin qərarı ilə bu vəzifəyə gətirilib və bu gün kollektivə təqdim edilib.

Dosent Anar Kazımov bu təyinatdan əvvəl Dövlət İqtisad Universitetində çalışırdı.

## Gələcək 5 ildə mümkün deyil

### Buraxılış imtahanları kompüterlə keçirilməyəcək



**“Buraxılış imtahanlarının kompüterlə keçirilməsi yaxın 5 ildə mümkün deyil”.**

“Şərq”in xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, hazırda bu üsuldan tam olaraq yüksək səviyyəli - magistraturaya, doktoranturaya qəbul imtahanlarında istifadə edilir.

M.Abbaszadə bildirib ki, buraxılış kütləvi imtahan olduğu üçün həmin imtahanları yalnız kompüterlə keçirmək gələcək 5 ildə mümkün deyil: “Nəzərə almaq lazımdır ki, sözügedən imtahanlarda 130 mindən çox insan iştirak edir”.

Qurum rəhbəri əlavə edib ki, cari ilin sonuna qədər bütün dövlət qulluğu imtahanlarının kompüterlə keçirilməsi planlaşdırılır.

**Şəymən**

# Terror təhlükəsi bəhanədir

## Süleyman Soylu: “Konsulluqların bağlanması Türkiyəyə qarşı psixoloji müharibədir”



**Qərb ölkələri heç bir sübut təqdim etmədən terror təhlükəsi bəhanəsi ilə diplomatik nümayəndəliklərini bağlayaraq Türkiyəyə qarşı ”psixoloji müharibə” aparırlar. Bunu Türkiyə Daxili İşlər Nazirliyinin rəhbəri Süleyman Soylu bildirib.**

”ABŞ və Qərb bizim müstəqil və azad olmağımızı istəmir. Onlar 60 milyon turist qəbul etməyi planlaşdırdığımızı və 46 milyard dollar turizm gəliri əldə etdiyimizi açıqladığımız gün bu psixoloji müharibəyə başladılar”, - nazir deyib.

Soylu əlavə edib ki, terror aktları ehtimalını açıq şəkildə bəyan edən və bu cür hadisələrin baş verə biləcəyi yerləri açıqlayan ölkələrin heç biri Türkiyənin heç bir təhlükəsizlik qurumu ilə əlaqə saxlamayıb.

*Qeyd edək ki, fevralın 1-də Böyük Britaniya, Niderland və Almaniya Türkiyənin İstanbul şəhərində terror təhlükəsini əsas göstərərək bu şəhərdəki baş konsulluqlarını bağlayıb.*

# Aİ təlim keçdiyi ukraynalı hərbçilərin sayını daha 15 min nəfər artırır

**Avropa İttifaqının (Aİ) Hərbi Yardım Missiyası (EUMAM) təlim keçiləcək ukraynalı hərbçilərin sayının iki dəfə artırılacağını təsdiqləyib.**



APA xəbər verir ki, bu barədə Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell Kiyevdə Ukrayna Baş naziri ilə görüşünə dair ”Twitter”dəki paylaşımında bildirib.

”Rusiya müharibəni Avropaya yenidən qaytardı lakin Ukrayna döyüşməyə davam edir. Aİ Hərbi Yardım Missiyası əlavə olaraq 15 min Ukrayna əsgərinə təlim keçəcək və EUMAM təlim keçmilmiş personalın ümumi sayını 30 minə çatdıracaq. Baş nazirə həmçinin təhlükə altında olan ərazilərdə minalardan təmizləmə səylərini dəstəkləmək üçün Aİ-nin 25 milyon avro ayıracağını açıqladım. Mülki əhalini qorumaq prioritet məsələdir”, Borrell bildirib.

**Əlcəzair-Azərbaycan münasibətləri inkişaf etməkdədir. Bir neçə gün öncə 2022-ci il noyabrın 29-da Əlcəzairdə imzalanmış ”Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilib.**



# Dost ölkələrin sayı artır

## Əlcəzairlə münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub

Bununla yanaşı, Azərbaycanın Əlcəzairdəki səfiri Tural Rzayev etimadnaməsini bu ölkənin Prezidenti Abdelmacid Tebbuna təqdim edib. Səfir Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Əlcəzairin dövlət başçısına çatdırıb. Əlcəzair Prezidenti iki ölkə arasında əlaqələrin inkişafında yeni mərhələnin başladığını vurğulayıb. Səfir iki dost ölkə arasında iqtisadiyyat, mədəniyyət və turizm sahələrində əməkdaşlığın inkişafının böyük potensialı olduğunu söyləyib. Diplomatik nümayəndəliyimizin bu istiqamətdə fəaliyyət göstərəcəyini diqqətə çatdırıb. Onu da qeyd edək ki, Milli Məclisin sədri Sahibə Qafarova Əlcəzairə işgüzar səfər edib. Əlcəzair Milli Xalq Assambleyasının rəhbəri İbrahim Bouğali bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıb. O, Bakıda səfərdə olarkən Azərbaycan xalqının yüksək qonaqpərvərliyini gördüklərini bildirib. Ölkəmizdə yaşayan Əlcəzair icmasının üzvləri ilə görüşdüyünü, onların Azərbaycanda özlərini çox rahat hiss etdiklərini və yaxşı yaşadıqlarını və buna görə ölkəmizə minnətdarlıqlarını ifadə edib. Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan və Əlcəzairi ənənəvi dostluq telləri və ortaq dəyərlər bir-birinə bağlayır. Milli Məclisin sədri gələn il iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 ilinin tamam olacağını xatırladıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

**Millət vəkili Ceyhun Məmmədov “Şərq”ə açıqlamasında bildirib ki, son illər Azərbaycanla Əlcəzair arasında əlaqələr sürətlə inkişaf edib. Deputat diqqətə çatdırıb ki, iki ölkənin münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub:** ”Cənab Prezidentin bir müddət öncə Əlcəzairə səfəri, orada keçirdiyi görüşlər, aparılan müzakirələr bütövlükdə əlaqələrimizin inkişafına böyük töhfə verdi. Dövlət başçısının səfər əsnasında səsləndirdiyi fikirlər Əlcəzair dövləti tərəfindən ən yüksək səviyyədə dəstəklənir. Artıq Əlcəzairdə Azərbaycanın səfiri fəaliyyət göstərir ki, bu da ikitərəfli əlaqələrin güclənməsinə ciddi təkan olacaq. Yekun olaraq Milli Məclis sədri Sahibə Qafarovanın Əlcəzairə səfəri, aparılan müzakirələr əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək. Səfər zamanı Əlcəzairin Milli Xalq Assambleyasının rəhbəri ilə görüş oldu, danışıqlar aparıldı. Azərbaycan həqiqətləri rəsmilərin diqqətinə çatdırıldı. Bir daha vurğulandı ki, hər iki dövlət əlaqələrin dərinləşməsində maraqlıdır. Şübhə yox ki, gələcəkdə qarşılıqlı səfərlərin miqyası genişlənəcək”.

**İsmayıl Qocayev**

# Azərbaycan Avropaya daha yaxın olacaq

## Zəngin yaşıl enerji potensialı ölkəmizin dünyada önəmini daha da artırır

**Bu gün Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçiriləcək. Bu mötəbər tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələrinin iştirakı nəzərdə tutulur.**

Toplantı açılış sessiyasından sonra müxtəlif mövzularda plenar sessiyalarla davam edəcək. Həmçinin Məşvərət Şurası çərçivəsində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında imzalanmış yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası üzrə Rəhbər Komitənin ilk iclasının keçirilməsi də planlaşdırılır. Tədbirin sonunda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının yekunlarına dair mətbuat konfransı keçiriləcək.

Artıq doqquzuncu dəfə təşkil olunan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də bu il daha iki mühüm tədbirin Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının və yaşıl enerjinin ötürülməsinə dair dördtərəfli Sazişin icrası üzrə Rəhbər Komitənin ilk iclasının da bu il baş tutması Azərbaycanın Avropanın enerji təminatında artan rolunu açıq-şəkildə ortaya qoyur. İqtisadi inkişafını durmadan şaxələndirərək genişləndirən Azərbaycan bununla da Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi işində əhəmiyyətli addım atıb. Prezident İlham Əliyevin həyata keçirdiyi yeni enerji siyasətinin bu baxımdan iki əsas komponentini xüsusi vurğulamaq lazımdır. Belə ki, ötən ilin fevralında Rusiya-Ukrayna müharibəsinin başlaması digər sahələrdən fərqli olaraq, enerji təminatı sahəsində vəziyyəti xüsusilə kəskinləşdirdi. Rusiyaya qarşı bir sıra sanksiyalar tətbiq etməyə başlayan Avropa özünün enerji təminatı üçün alternativ mənbələrə üz tutdu. Bu istiqamətdə ötən il iyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması xüsusi əhəmiyyət daşıyır. Həmin sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar. Xüsusilə vurğulamaq lazımdır ki, artıq həmin sənədin icrasına başlanıb. Qeyd edək ki, 2021-ci ildə Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil edirdisə, 2022-ci ildə bu rəqəm 11,3 milyard kubmetr olub. Cari ildə isə onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. 2023-cü ildə Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün 2021-ci ildə bu rəqəm 19 milyard kubmetr təşkil edirdi. Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır. Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var. Dövlət başçısının yeni enerji siyasətinin digər mühüm komponenti isə odur ki, Prezident İlham Əliyev Avropaya digər enerji körpüsünü də salır. Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan verir. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Azərbaycan strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırır.




Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi yer tutur. Xüsusi vurğulamaq lazımdır ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. Bu nəhəng layihə ilə bağlı ilk sənəd - Azərbaycan ilə Avropa Komissiyası arasında Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə 2011-ci ildə imzalanıb. Bu, həmin layihənin icrasının başlanğıc mərhələsi sayılır. Prezident İlham Əliyevin 2013-cü il oktyabrın 29-da imzaladığı Sərəncam ilə Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində Azərbaycanın mənafeyini qorumaq və layihə iştirakçılarına dövlət dəstəyinin təmin edilməsi məqsədilə Dövlət Komissiyası yaradılıb. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin iyirmi illiyində Səngəçalda Cənub-Şərqi Avropa ölkələrinin dövlət və hökumət başçılarının, nazirlərinin və beynəlxalq şirkətlərin rəhbərlərinin iştirakı ilə Cənub Qaz Dəhlizi layihəsinin təməlqoyma mərasimi keçirilib. Azərbaycan strateji əhəmiyyət daşıyan Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı, səhmdarı və ev sahibinə çevrilib. Bu təşəbbüsə ilk olaraq Türkiyə və Gürcüstan, sonrakı dövrdə İtaliya, Yunanıstan, Bolqarıstan, Albaniya qoşulub. Hazırda yeni və potensial tərəfdaşlar arasında Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da yer alıb.

Artıq Azərbaycan hasil etdiyi qazı qonşu dövlətlərə ixrac edir və Avropa bazarına ixraca başlamaq üçün yeni kəmərlər tikilib. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilməyə başlanıb. 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin ozamankı baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP layihəsinə imza atılıb. 2013-cü ildə "Şahdəniz" konsorsiumu TANAP kəməri ilə daşınacaq Azərbaycan qazının Avropa bazarına çatdırılması üçün Türkiyə sərhədini İtaliyanın cənubuna birləşdirən TAP (Trans-Adriatik təbii qaz boru kəməri) layihəsini seçib və kəmərin tikintisi 2020-ci ildə başa çatdırılıb. Bu layihələr "Şahdəniz" yatağını İtaliyanın cənubuna birləşdirməklə "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasına imkan verib. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşləri 2015-ci ildən başlayaraq hər il keçirilir. 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizinin önəmli hissəsi olan TANAP enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. "Cənub Qaz Dəhlizi" layihəsinin əsas elementlərindən biri olan Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi başa çatdıqdan sonra, 2018-ci il iyunun 30-dan "Şahdəniz-2" çərçivəsində Türkiyəyə kommersiya təyinatlı qaz həcmlərinin nəqlinə başlanılıb. 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilib. 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin rəsmi açılışı olub və bununla da onun tikintisi tamamlanıb. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəməri ilə 2020-ci il dekabrın 31-dən etibarən kommersiya təbii qazının nəqlinə başlanılıb. Beləliklə, Azərbaycanın zəngin qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılmasına nail olunub. Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar isə 3 trilyon kubmetr civarındadır. Yalnız "Ümid" yatağının potensialı 200 milyard kubmetrdən çoxdur. Bu isə qarşıdakı 100 ildə də Azərbaycanın karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı kimi tanınmasına imkan verir. "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələrinin operatoru olan BP ilə icrasına başlanan "D 230" bloku və "Şəfəq- Asiman" qaz yatağının işlənilməsi üzərində işlər davam etdirilir. Beləliklə, Azərbaycanın enerji sahəsində məqsədyönlü fəaliyyəti onu regional enerji mərkəzinə və etibarlı tərəfdaşa çevirir. Prezident İlham Əliyev bu barədə bildirib: "Əlbəttə, enerji təhlükəsizliyi məsələləri bugünkü dünyada xüsusi əhəmiyyət daşıyır və hesab edirəm ki, dünya gündəliyinin ön sıralarındadır. Azərbaycanın zəngin neft-qaz resursları imkan verir ki, uzun illər bundan sonra - təbii qazla bağlı ən azı yüz il bundan sonra Avropa üçün etibarlı tərəfdaş olsun. Avropa Komissiyasının rəhbərliyi Azərbaycanı məhz belə də adlandırır: etibarlı tərəfdaş".

Azərbaycan zəngin yaşıl enerji potensialı ilə Avropanın enerji təminatındakı rolunu daha da gücləndirir. Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın bu baxımdan önəmini daha da artırır. Yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr Azərbaycanı Avropa üçün daha da yaxın edəcək. Bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb. 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişə əsasən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq. Sazişə əsasən, elektrik enerjisi kabeli Qara dənizin dibi ilə çəkiləcək və bu, Azərbaycandan olan yaşıl enerjini Avropaya gətirəcək. Bu isə o deməkdir ki, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək. Azərbaycan Avropa İttifaqı ilə enerji dialoqunda yeni mövzular olan yaşıl enerji və yaşıl hidrogen böyük perspektivi olan sahədir və Azərbaycan iqtisadiyyatına çox böyük fayda gətirəcək.

**İsmayıl**




# "Məscidlərə diqqət yönəltmək lazımdır"

## "Eyni zamanda İranın casus şəbəkəsinə aid olan, xüsusilə də Bakının ətraf kəndlərində yerləşdirilmiş adamlar üzə çıxarılmalıdır"

**"İranın Azərbaycandakı casus şəbəkəsinə qarşı Daxili İşlər Nazirliyinin keçirdiyi əməliyyat tədbirləri çox uğurludur". Bunu "Şərq"ə siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib.**

Onun sözlərinə görə, əməliyyatların keçirilməsi İranın Azərbaycandakı səfirliyinə hücumla əlaqəli deyil:

"Hər hansı bir əməliyyatın hazırlanması üçün 3-6 ay vaxt tələb olunur. Bu müddət ərzində müşahidələr aparılır, dinləmələr həyata keçirilir, faktlar dəqiqləşdirilir. İşlər Azərbaycanın qəbul etdiyi 1999-cu il "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunun müddəalarına əsasən aparılır.

Azərbaycanda "din pərdəsi" altında təxribatçılıq və pozuculuq əməlləri ilə kifayət qədər insan məşğuldur. Qısa bir müddət ərzində DİN 39 nəfəri saxlayıb. Bu günə qədər Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi (DGK), Dövlət Təhlükəsizliyi Xidməti (DTX), Dövlət Sərhəd Xidmətinin (DSX) həbs etdiyi narkoticarətçilər də bu və ya digər formada İrana xidmət edirlər. Rəsmi Tehranın lehinə təbliğat aparanların saxlanılması prosesi davam etdirilməlidir.

Çünki həmin şəxslər bu əməllərini təkcə sosial şəbəkələr üzərindən törətmirlər. Eyni zamanda məscidlərə diqqət yönəltmək lazımdır. Xüsusilə, şiə məscidlərində daha çox anti-Azərbaycan təbliğatı aparılır. Hətta "bozbaş mollaları" o dərəcədə harınlayıblar ki, ad çəkməkdən də qorxmur, çəkinmirlər, həyasızlaşıblar.



**Cümşüd Nuriyev:**
"İctimaiyyət bu məsələdə mühüm rol oynamalıdır. Şübhəli şəxs və ya fəaliyyət gördükdə hüquq-mühafizə orqanlarına məlumat verilməlidir"

Ona görə də həyata keçirilən tədbirlər bilavasitə molla rejimini çökdürməyə xidmət edəcək. İranın xüsusi xidmət orqanlarının yaratdığı casus şəbəkəsini müəyyənləşdirmək çox vaxt tələb edir. Yalnız DİN yox, DTX da bu işlə məşğuldur. Təmizləmələr effekt verəcək. İlk növbədə, Azərbaycanın sosial şəbəkə seqmentində İranın təbliğatı zəifləyəcək. Ölkəmizdə rəsmi Tehranın dini və siyasi gücü barədə fikirlər gündəmdən düşəcək. Burada şiə adı ilə İrana sevgi "bəsləyənlərin" sayı kütləvi şəkildə azalacaq".

**Professor onu da əlavə edib ki, casusların açıq-aşkar, həyasızcasına təbliğatına son qoyulacaq:** "Azərbaycanla İran arasındakı münasibətlər uzun müddət idi ki, sakit keçirdi. Artıq vaxt çatıb. Əməliyyat tədbirləri davam etdirilməlidir. Eyni zamanda İranın casus şəbəkəsinə aid olan, xüsusilə də Bakının ətraf kəndlərində yerləşdirilmiş adamlar üzə çıxarılmalıdır. Şeyxülislam Allahşükür Paşazadənin çox möhtəşəm bir çıxışı var. O həmişə çox az, amma dəqiq danışır. Deyib ki, 40 milyonluq Azərbaycan türkü İranın (fars, molla rejiminin) əsiridir. Amma Azərbaycanın daxilində də minlərlə molla rejiminin agentura şəbəkəsi var. Onlar da rəsmi Tehranın əsiridir. Həmçinin ictimaiyyət bu məsələdə mühüm rol oynamalıdır. Şübhəli şəxs və ya fəaliyyət gördükdə hüquq-mühafizə orqanlarına məlumat verilməlidir".

*Qeyd edək ki, İranın casus şəbəkəsinə qarşı DİN əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində Azərbaycanda "din pərdəsi" altında təxribat və pozuculuq əməllərini həyata keçirən 39 nəfər müəyyən edilərək saxlanılıb. Həmin şəxslər sosial şəbəkələr üzərindən İran lehinə təbliğatlar apararaq ölkəmizdəki dini etiqad azadlığından sui-istifadə edərək Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün İran xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetiriblər.*

**Sücayət Mehti**

# "Ermənistan Azərbaycanın ərazilərini işğal etmişdi"

## Lavrov: "Azərbaycan torpaqlarını geri qaytardı"



**Rusiya xarici işlər naziri Sergey Lavrov "Rossiya-24" telekanalına müsahibəsində yarımçıq da olsa bir sıra həqiqətləri dilə gətirib. Rusiya XİN başçısı bildirib ki, Ermənistan Azərbaycanın ərazilərini işğal etmişdi və Azərbaycan torpaqlarını geri qaytardı. Lavrov KTMT missiyasının Ermənistanın Azərbaycanla sərhəd hissəsində yerləşdirilməsi məsələsinə də toxunub:**

"Ermənistan və Azərbaycan Qafqazda vəziyyətin stabilləşdirilməsi yollarını axtarmağa davam edərkən KTMT kömək etməyə hazırdır. Ötən ilin sentyabrında toqquşma zamanı hər iki tərəfdən 300-ə yaxın insan həlak olmuşdu. Biz Ermənistanın xahişini aldıq. Qurumun baş katibi xüsusi ekspertlər missiyası ilə Ermənistan-Azərbaycan sərhədinə getdi və KTMT missiyasının Ermənistanın Azərbaycanla sərhəd hissəsində yerləşdirilməsi planını gətirdi. Bu plan kifayət qədər çoxdan hazır idi. Lakin Ermənistan tərəfi bizi tələsdirmədi və yekunda İrəvanda sammitdə biz müvafiq qərarla bunu bitirdik". Amma Lavrov Ermənistanın bu qərarda Azərbaycanın qəti şəkildə qınanılmasını şərt kimi qoyduğunu və KTMT ölkələrinin buna razı olmadıqlarını xatırladıb: "Ona görə yox ki, kimisə himayə edək, kiməsə dəstək olmayaq. Sadəcə, Qarabağ müharibəsinin tarixi onilliklərlə dərinə gedir. Uzun illər Ermənistan Azərbaycanın yeddi rayonunu işğal etmişdi. Sonra Rusiya çoxsaylı variantlar təklif etmişdi ki, əvvəlki Ermənistan rəhbərliyi bunu çox müsbət qarşılamamışdı, həmin əraziləri, hansı ki, onlar heç vaxt iddia etmirdilər, əllərində saxlamağı arzulayırdılar. Bəli, Azərbaycan ona məxsus torpaqları geri qaytardı". Lavrov Ermənistan və Azərbaycanın Avropa İttifaqı ilə birlikdə sülh müqaviləsini bağlamağa hazır olduqları haqqında sənədi imzaladıqlarını və həmin sənəddə sülh müqaviləsinin 1991-ci ilin Almatı Bəyannaməsinin şərtləri əsasında imzalanacağını xatırladıb: "Bizə hətta gələcək addımları müəyyənləşdirmək çətindir. Çünki Almatı Bəyannaməsində deyilir ki, yeni dövlətlər arasındakı sərhədlər Sovet İttifaqına daxil olan Sovet respublikalarının inzibati sərhədləri olacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti isə Azərbaycan Sovet Respublikasının tərkibində olub. Ona görə də burada vəziyyət çoxqatlıdır. KTMT-nin bu sadə olmayan vəziyyətdə sülhməramlı missiyasının yerləşdirilməsi planını hazırlaması faktı, düşünürəm ki, çox vacib nailiyyətdir. Bu təklif hələ də masa üzərindədir. Əgər bizim ermənistanlı müttəfiqlərimiz, dostlarımız əvvəlki kimi bunda maraqlıdırlarsa, bunu bir-iki gün ərzində yerləşdirmək olar".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Rusiya Xarici İşlər Nazirliyi bir neçə gün bundan qabaq Avropa İttifaqının Ermənistanda "mülki missiya" qrupunun yerləşdirilməsinin regionda sülh prosesinə zərbə vuracağını bildirmişdi:** "Heç kəsə sirr deyil ki, Nikol Paşinyan ABŞ-dən maliyyələşən QHT-lərin köməyi ilə hakimiyyətə gəlib. Bunlar Soros fondu və digər təşkilatlardır. Bu maliyyəçilər əvvəlcədən qarşılarına Ermənistanı beynəlxalq münasibətlərin Rusiyayönümlü spektorundan Amerikayönlü spektoruna çevirmək vəzifəsini qoyublar. Bu proses tədricən həyata keçirilir. Necə ki, Ukraynada da bunu belə etdilər. Tədricən Ukraynanı Rusiyadan qopardılar. Bir an içində Ermənistanı da Rusiyadan qoparmaq mümkün deyil. Bu proses tədricən aparılır. Amma bütün hallarda Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi ayrı-ayrı siyasi oyunçuların "girovuna" çevrilməməlidir".

**İsmayıl Qocayev**

## Yurda qayıdış



# "Atamın gənc yaşında ölümünə də erməni həkimlər bais olub"

### Telli Pənahqızı: "Bu saat məni aparsalar, gözübağlı gedib evimizin yerini taparam. Məktəbimizin yerini taparam"

**...Ay bulud, sən sıxma kipriklərini,**
**Ağlama, gözünün yaşı quruyar.**
**Ay bulaq, gözündə sevdiklərimin,**
**Şəkli var, asta ol, birdən pozular.**

Şeirdən məhz bu misraları niyə önə çəkdiyimi deyim; Telli Pənahqızı əzəli yurd yerlərimiz - İrəvan, Vedibasar, Göyçə, Zəngəzur, Amasya Azərbaycanımızın qərb bölgələri, doğulub boya-başa çatdığı torpaq haqqında danışanda "yəqin orda izimiz qalmayıb artıq. Mənfur qonşularımız bizə aid nə vardısa siliblər yer üzündən " dedi. Bu şeir isə Telli xanımın o torpağa, bulağa, ümumiyyətlə təbiətə ismarıcıdır - nişanələrimizi biz qayıdanadək saxlayın, qoruyun ki, pozulmasın. Qayıdanda görəcəyik o nişanələri. Ruhumuzla duyacağıq. Ora qayıtmağa hazırlaşmışıq axı!.. Cismən. Ruhumuz nə vaxt o doğma torpaqlardan ayrı düşüb ki?!. Telli xanımın eynilə bu fikirdə olduğunu bilmək üçün ona hər hansı sual verməyə də ehtiyac yox idi. Telli xanımı ölkədə tanımayan, yəqin ki, yoxdur. Fəaliyyəti, yaradıcılığı da göz önündə, bəllidir. Ruhuna da bələdik. İndiyədək Azərbaycan Dövlət Televiziyasında hazırladığı və rəhbərlik etdiyi proqramlar, qələmindən çıxan məqalələr, şeirlər, fikirlərini daim tərtəmiz ana dilimizdə mirvari kimi sıralaması, şirin danışığı, səsində aşkar hiss olunan Vətən həsrəti onun cisminin paytaxtda, ruhununsa yox, təkcə Vedibasarda deyil, bütün Azərbaycanda dolaşdığına sübutdur. Telli xanımla söhbətimizin mövzusu əslində, keçmiş deyil, bu günümüz və gələcəyimizdir. Doğma torpaqlara qayıdışla bağlı nəhəng işlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış oldu və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdü. Dövlətimizin başçısı bu görüşdə bütün dünyaya mühüm mesajlar verdi və azərbaycanlıların doğma yurdlarına qayıdacağına əminliyini ifadə etdi. Məlumdur ki, Qərbi Azərbaycana qayıdış konsepsiyası artıq hazırlanıb. Qədim yurd yerimiz Vedibasar mahalının Böyük Vedi kəndində anadan olmuş Telli Pənahqızı qayıdışı necə görür və hansı işlərin icrasını vacib sayır? Hazırlanmış konsepsiyaya Telli xanımın də təklifləri olubmu?

- Cənab Prezidentin ziyalılarla görüşündə mən də iştirak edirdim. Cənab Prezident həmin görüşdə hansı işlərin görülməli olduğunu diqqətə çatdırdı. Amma gəlin, biz məsələni belə qoymayaq; kim nə təklif verdi, hansı təkliflər qəbul olundu Bu, bizim ümumi işimizdir. Azərbaycan xalqının işidir. Bu gün biz hamımız Qərbi azərbaycanlıyıq. Harada doğulmağımızdan asılı olmayaraq. Çünki əgər 44 günlük müharibədə biz bunu bacardıqsa, deməli, yenə bacaracağıq. Məqsədimiz, niyyətimiz budur ki, doğma yurd-yuvasından, elindən-obasından didərgin salınanların hüquqları bərpa olunsun. Kar, kor dünya başa düşsün ki, haqqı tapdanan da bizik, qovulan, didərgin salınan, hüquqları pozulan da bizik. Dünya ictimaiyyəti də anlasın artıq, yalan danışan kimdir, böhtan atan kimdir. Uzun illərdən bəri fəaliyyət göstərən Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyinin artıq icma halında öz işini davam etdirməsi, mənə belə gəlir ki, Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışını sürətləndirəcək addımdır. Cənab Prezidentin icmanın inzibati binasında görülən işlərlə tanış olması, orada ziyalılarla görüşü həm də Azərbaycan dövlətinin öz xalqına, millətinə olan böyük sevgisinin təzahürüdür. Xalqımız əsrlərlə o torpaqlarda yaşayıb, maddi sərvətlər yaradıb. Tarixi abidələr, qəbirlər, hansı ki onlarla tariximizi ayırd edə bilirik. Çox təəssüf ki, artıq o məzarlıqlar dağıdılıb. Uşaqlıq illərində yadıma gəlir, yaylağa gedəndə köhnə qəbirlərə rast gələrdik. Deməli, o yaylaq yerlərində əcdadlarımız yaşayıb, məskən salıbmış. Orda evlər olub, sonrsa həmin ərazilərdən yaylaq yeri kimi istifadə edilirdi. Erməni gorəşənləri onları zaman-zaman yer üzündən sildi, məqsəd nəydi? Özgənin torpağına sahiblənmək. Təkcə torpağa deyil, maddi-mədəni sərvətlərə də. Necə ki, hər bir xalqın özünü təyin etmək, öz hüququnu tələb etmək haqqı var, biz də öz hüququmuzu tələb edirik. 1988-ci ildə insanlarımız hər şeylərini qoyub gəlmək məcburiyyətində qaldılar. Uşaq, körpə, qoca, cavan insanlarımız qətlə yetirildi. Bu, birinci dəfə deyildi. Xalqımız bu ağrını dəfələrlə yaşayıb. Amma inanıram ki, insanlar doğma yurdlarına yaşamaq haqqını qazanıb ora qayıtdıqdan sonra bu ağrı da yavaş-yavaş azalacaq, səngiyəcək. Bu işdə bütün Azərbaycan birdir. Nəzərə alsaq ki, 1905-ci ildən üzü bəri köç daimi olub. İnsanlarımızı o torpaqlardan qovublar, nəsillər dəyişib, artıq uzun illər öncə rəhmətə gedənlər var, amma bura pənah gətirmiş insanların ailə üzvləri, nəvə-nəticələri həyatdadır. 1988-də Qərbi Azərbaycandan 350 minə yaxın həmvətənimiz qovuldu. O hissləri onları yaşamamış insanların anlaması çətindir. Amma bizim inamımız böyükdür. Cənab Prezidentin Qərbi Azərbaycan torpaqlarına qayıdışı bilavasitə gündəmə gətirməsi və Qayıdış konsepsiyasının hazırlanmasına göstəriş verməsi, bu işə birbaşa rəhbərliyi bizim üçün böyük üstünlükdür və biz hazırkı situasiyadan mütləq istifadə etməliyik.



"Amma təəssüflə demək istəyirəm ki, yəqin orda izlərimiz qalmayıb. Hamısını məhv ediblər. Bilmirəm Allah niyə bizi bunlarla qonşu etdi, nə günahımız vardı?.."

"Əgər biz bu işə başlamışıqsa və məqsədimiz də doğma yurdumuzda yaşamaq hüququmuzu bərpa etməkdirsə, burada sənin-mənim söhbəti olmamalıdır. Bu, bütün Azərbaycanın işidir"

**- Telli xanım, doğulduğunuz yurd, ocaq yerini düşünəndə, daha çox nəyi xatırlayırsınız, nələr gəlir gözünüzün önünə?**

- Uşaqlıq yaddaşı hər bir insanda güclü olur. Məktəbə getməyim, dostlarım, qonşularımız, atalı-analı günlərim Təbii ki, illər keçib, nəslərsə unudula bilər, amma Vətən sevgisi heç vaxt korşalmır.

**- Təhsil aldığınız məktəb evinizə yaxın idimi?**

- Bilirsiz bunlar nostalji hisslərdir. Uşaq evdən çıxır, qışın soyuğunda dərsə gedir, yazda yol boyu çiçək açan ağacları görür, bulaqları görür, bu hissləri qələmə almaq da mümkün deyil Çox adam bu sözü deyir, mən də deyəcəm; bu saat məni aparsalar, gözü bağlı gedib evimizin yerini taparam. Məktəbimizin yerini taparam. Qonşuluqdakı evlərin də yeri, kimin harada yaşadığı da yadımdadır. Amma təəssüflə demək istəyirəm ki, yəqin orda izlərimiz qalmayıb. Hamısını məhv ediblər. Məscidləri dağıdan, məsciddə donuz saxlayanlardan danışırıq! Onlardan başqa nə gözləmək olar?!. Nə bilim Bilmirəm Allah niyə bizi bunlarla qonşu etdi, nə günahımız vardı?..

**- Yəqin bu da bir imtahandı, Telli xanım**

- Nə qədər olar?.. İmtahan da bir dəfə olar, iki dəfə olar... Nə bilim... Nə günahımız var ki, bu əclafların zülmünü çəkdik?! Amma həm də düşünürəm ki, günah bizdə deyil. Günah Çar Rusiyasındadı ki, onları Qafqaza, Azərbaycana yerləşdirdi, günah müxtəlif marağı olan qüvvələrdədir. Nəyə görəsə onlara arxa duranların sayı da çoxdu. Onları müdafiə etmək üçün başqa arqumentlər gətirirlər, lakin bu arqumentlərin heç bir əsası yoxdur. Erməni başını örtə bilər, məscidi ziyarət edə bilər. Amma bu, onun başqa bir dinə hörmət bəslədiyinə, başqa bir xalqı sevdiyinə dəlalət etmir. Çünki onların hamısı şeytandı. Özlərinə nə vaxt lazım oldu, simalarını dəyişirlər.

**- 1988-ci il hadisələri başlayanda valideynləriniz həyatda idimi?**

- Atam gənc yaşlarında dünyasını dəyişib, 37 yaşında. Buna da erməni həkimlər bais olub. Mədə xorası vardı. Mədə xorası nə vaxtdan ölümə səbəb olan xəstəlikdi? Xüsusən insan gəncdirsə, düzgün müalicə alırsa, sağalır. Amma atamı sağaltmadılar. Biz böyüdük, Bakıya ali təhsil almağa gəldik. Sonda anam gəldi.

**- Yəqin ki, siz də sənədlərinizi təqdim etmisiniz icmaya?**

- Mən sənədlərimizi 1988-də təqdim etmişəm. O zaman Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyində sənədlər, pasportlar toplandı. İnsanların mal-varlığı siyahıya alındı. Hansı rayonda, hansı kənddə nə qədər əhali yaşayıb, məhəllələrin, küçələrin adlarını qeyd etdilər. Bu sənədlərin hamısı arxivdə saxlanılır.

**- Bayaq dediniz, yəqin o torpaqlarda izimiz qalmayıb. Siz də mənimlə razılaşarsınız ki, əsas insanın ruhudur. Ora qayıtsaq, ruhumuzun köməyi ilə hər şey bərpa olunacaq.**

- Təbii ki. Amma ermənilər evlərimizi söküb, dağıdıb. Onlar harda tarixi abidə görürlərsə ermən xaçı çəkirlər. Alçaq qonşularımız bizi min-bir əziyyətlə evlərimizdən çıxardı, insanlar özləriylə heç nə götürə bilmədilər. Bakıdakı ermənilərin çoxu isə rahatca evlərini dəyişdilər. Onlara yardım edənlər də oldu, hətta sərhədə qədər ötürdülər. Əyri-üyrü qazanlarını da apardılar. Gözümüzün qarşısında olub bunlar hamısı. Əlbəttə, əsas ruhun ölməməsidir. Şükür ki, Allah bizi çətin imtahana salıbsa da, sarsılmaz ruh da ehsan edib. Bu ruh ki bizdə var, abidələrimizi də bərpa edəcəyik, evimizi, ocağımızı da.

**- Telli xanım, hazırlanan sənədlər hansı qurumlara göndəriləcək?**

- Toplanan sənədlərin hansı təşkilatlara göndəriləcəyi yaxın zamanda bilinəcək. Bizim sənədlərimiz məlumdu, beynəlxalq təşkilatlara təqdim olunacaq. Bu təşkilatlar əgər istəsələr, kimin harada yaşadığını müəyyən edəcəklər.

**- Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasını əks etdirən kadrlar televiziyada nümayiş olunur, hamımız baxırıq, görürük. O kadrlar yəqin beynəlxalq təşkilatlara da təqdim olunmalıdır.**

- Əlbəttə, hamısı təqdim olunub. Amma yenə onların havadarları həqiqəti danmağa çalışır. Erməni xisləti belədir, utanmadan, çəkinmədən alçaqlıq etməyi bacarırlar. Müstəqilliyimizin bərpasından sonra Sahil bağındakı "26 Bakı komissarları" kompleksi söküləndə məlum oldu ki, orada kimsə dəfn edilməyib, məzar da yoxdur, qaniçən daşnak Şaumyan da sağ imiş, hansısa xarici ölkədə uzun illər yaşayıb. Onlar bunu bacarırlar. Özlərinə dövlət qurdular, başqasının torpağını öz adlarına çıxdılar. Onlar utanmaz, abırsız, həyasız məxluqlardır. Qərbi Azərbaycan didərgin salınan həmvətənlərimizin sənədləri arxivdə saxlanılır. Heç biri itib-batmayıb. Hamısı salamatdı. Vaxtı gələndə, hara lazımdı təqdim ediləcək. Bədbəxtliyimiz bundadır ki, bu boyda vacib işimiz var, amma yenə də işimizə xələl gətirən adamlar tapılır. Kiməsə böhtan atırlar, "mən niyə olmamalıyam" deyirlər. Sən bir önə çıx, bir işin qulpundan da sən yapış. Bəzilərinə şəxsən müraciət edib deyiblər ki, ərazi barədə məlumat lazımdı, gəlin, məlumat verin, bildiyiniz faktları paylaşın, yaxın durmayıblar. Yorulmadan çalışan, gecəsini-gündüzünü bu işə sərf edən insanlar var. Heç bir umacaqları olmadan bu işləri görürlər. Nəyin naminə? Yalnız həqiqət naminə. Əgər biz bu işə başlamışıqsa və məqsədimiz də doğma yurdumuzda yaşamaq hüququmuzu bərpa etməkdirsə, burada sənin-mənim söhbəti olmamalıdır. Bu, bütün Azərbaycanın işidir. Bilmirəm, siz harda doğulmusunuz, amma bilirəm ki, sizin də qəlbinizdə Qərbi Azərbaycan həsrəti var.

**- Çox sağ olun, Telli xanım, gərgin iş şəraitində bizə vaxt ayırdığınız üçün. İnşallah, arzularımız çin olar. Doğma yurd yerlərimizə qayıdarıq.**

- İnşallah!

**Söhbətləşdi, Məlahət Rzayeva**

# Zərdüşt Əlizadə qardaşının partiyasından xəbərsizdir

### "Mən 2001-ci ildən bəri sözügedən partiya ilə əlaqələrimi kəsmişəm"



**Məlum olduğu kimi, ötən ilin 6 oktyabrında Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, sabiq deputat Araz Əlizadə 70 yaşında onkoloji xəstəlikdən dünyasını dəyişib.**

Qeyd edək ki, Araz Mübariz oğlu Əlizadə 1951-ci il noyabrın 3-də Bakı şəhərində doğulub. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. 1991-1995-ci illərdə Azərbaycan Ali Sovetinin deputatı, 1991-ci ildə Azərbaycan Respublikasının "Respublika Müdafiə Şurası"nın üzvü seçilib.

Bəs, görəsən, A.Əlizadə vəfatından sonra onun rəhbərlik etdiyi partiyaya kim rəhbərlik edir, sədr dəyişibmi, yoxsa təşkilatın fəaliyyəti dayanıb?

**Partiyanın hazırkı taleyi ilə bağlı məlumat almaq üçün təşkilatın həmtəsisçilərdən olan A.Əlizadənin qardaşı, politoloq Zərdüşt Əlizadə ilə əlaqə saxladıq.**

**O, "Şərq"ə bunları söylədi:** "Mən 2001-ci ildən bəri sözügedən partiya ilə əlaqələrimi kəsmişəm. Orada nə baş verdiyindən və partiyanın aqibəti barəsində xəbərim yoxdur. Xahiş edirəm, bu məsələ ilə bağlı məni narahat etməyəsiniz".

**Nihat**

# "Naxçıvan Ali Məhkəməsində bəraət alacağıma inanıram"

### Tural Səfərov: "Artıq məni şəxsi ambisiyalarına görə qanunsuz şəkildə həbs etdirənlər tarixin zibilliyinə atılıb"



**"2021-ci ilin iyun ayında Vasif Talıbovun tapşırığı ilə Naxçıvanda qanunsuz şəkildə həbs edilmişdim. Naxçıvan Şəhər Məhkəməsinin hökmü ilə 4 ay müddətinə azadlıqdan məhrum olunmuşdum".**

*Bu sözləri tanınmış naxçıvanlı jurnalist, "TNS" İnformasiya Agentliyinin rəhbəri Tural Səfərov deyib. Jurnalist bildirib ki, həbs olunmasının bəhanəsi Naxçıvan Beynəlxalq Hava Limanı barədə yazdığı tənqidi status olub*: "Dəfələrlə qeyd etdiyim kimi, mənim həbsimin çox ciddi siyasi səbəbləri var idi. Bir ay həbsdə qaldıqdan sonra Azərbaycanın müvafiq dövlət orqanlarının müdaxiləsi ilə şərti azadlığa buraxılmışdım. Həmin ilin dekabr ayında amnistiya tətbiq edilmiş və məhkumluğum götürülmüşdü. Mən cinayətkar deyildim və bu qərarla heç cür razılaşa bilməzdim. Ona görə də mənə bəraət verilməsi xahişi ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə kassasiya şikayəti vermişdik. Bu gün məhkəmə iclası keçirildi. Azərbaycan Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarını qanunsuz hesab edərək ləğv etdi. İş baxılması və bəraət verilməsi üçün yenidən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə qaytarıldı. Artıq məni şəxsi ambisiyalarına görə qanunsuz şəkildə həbs etdirənlər tarixin zibilliyinə atılıb. Ona görə də Naxçıvan Ali Məhkəməsində bəraət alacağıma inanıram".

*T.Səfərov Azərbaycanda ədalətli məhkəmə sisteminin qurulması istiqamətində apardığı islahatlara, haqlının və ədalətin yanında olduğuna görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib:* "Bu müddətdə haqlı mövqeyimi dəstəkləyən, yanımda olan ağsaqqallara, dostlara, dəyərli millət vəkillərinə, partiya sədrlərinə, siyasi və ictimai xadimlərə, jurnalist həmkarlarıma təşəkkürümü bildirirəm. Biz birlikdə gücüyük. Qoy hər zaman ədalət zəfər çalsın!".

**İsmayıl**

# Naxçıvan-Türkiyə quru sərhədi açılıb

### Avtomobillərin keçidinə icazə verilməsi Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu ilə əlaqədardır

**Son zamanlar sərhədlərin qapalı olması ilə bağlı problem ən aktual məsələdir və quru sərhədlərin açılması sosial tələbdir. İnsanların böyük əksəriyyəti pandemiyaya görə bağlanmış sərhədlərin artıq açılmasını tələb edirlər və bu sərhədlərin bağlı saxlanılması üçün heç bir əsas yoxdur.**



**Fazil Mustafa:** "Bu onunla bağlıdır ki, insanlar gündəlik məişət tələbatlarını ödəmək, 5-10 manat çörəkpulu qazanmaq üçün Türkiyəyə rahat keçə bilsinlər "

Qeyd edək ki, Naxçıvan sərhədindən Türkiyəyə gediş-gəlişə qoyulmuş qadağa ləğv edilib. Dünəndən etibarən Naxçıvan Muxtar Respublikasında yerləşən Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsindən avtomobillərin keçidinə icazə verilib. Lakin qeyd edilib ki, sərhədi keçmək istəyən şəxslər yalnız Naxçıvan MR vətəndaşları olmalıdır. Onlar öz şəxsi avtomobilləri ilə sərhədi keçə bilərlər. Hələlik avtobusların gediş-gəlişinə qoyulan qadağa isə qüvvədə saxlanılıb.

Qeyd edək ki, koronavirus pandemiyası zamanı Azərbaycanın quru sərhədləri bütün qonşu ölkələr üçün bağlansa da, Naxçıvan MR-dən İran və Türkiyəyə gediş-gəlişə icazə verilirdi. Lakin 2022-ci il iyulun 1-dən etibarən Naxçıvanda da yük maşınları istisna olmaqla digər avtomobillər üçün keçid dayandırıldı.

Ölkə vətəndaşları sözügedən qərarı müsbət qarşılasa da, Gürcüstan- Azərbaycan sərhədi ilə bağlı da analoji addımların atılmasını tələb edirlər.

**Məsələni "Şərq"ə şərh edən millət vəkili Fazil Mustafa isə hesab edir ki, Naxçıvanın yerləşdiyi coğrafi mühit səbəbindən bu qərar ayrıseçkilik kimi dəyərləndirilməməlidir. Yeni hazırkı proseslər fonunda Naxçıvan-Türkiyə sərhədi ilə Azərbaycanın digər quru sərhədlərinin bağlı qalması müqayisə predmeti olmamalıdır:** "Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsindən avtomobillərin keçidinə icazə verilməsi Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu ilə əlaqədardır. İranla diplomatik əlaqələrimiz kəsilib, səfirliyimiz fəaliyyətini dayandırıb. Naxçıvanlılar İran vasitəsilə Bakıya gələ bilmirlər. Türkiyə ilə sərhəd məntəqəsi də bağlı olduğundan Naxçıvanda təyyarədən başqa nəqliyyat vasitəsi yox idi. Bu isə insanların çıxışını məhdudlaşdırırdı. Sərhədlərin açılması onlara imkan yaradır ki, gündəlik məişət tələbatlarını ödəmək, 5-10 manat çörəkpulu qazanmaq üçün Türkiyəyə rahat keçə bilsinlər. Hesab edirəm ki, qısa zamanda avtobusların gediş-gəlişinə qoyulan qadağa da ləğv edilməlidir".

Gürcüstan-Azərbaycan quru sərhədinin bağlı qalması da soydaşlarımız üçün çox ciddi problemlər yaradır. Bu qədər narazılığa rəğmən hələ də arzuolunan qərarın niyə verilmədiyinə gəldikdə isə millət vəkili deyib ki, bu məsələ bir növ beynəlxalq situasiyalardan asılıdır: "Görünür, dünyada COVID təhlükəsizliyi ilə bağlı xəbərdarlıqlar artdığı üçün hökumət riskə getmək istəmir. Ancaq mən də hesab edirəm ki, müəyyən güzəştlər edilə bilər. Vacib və həyati əhəmiyyətli məsələsi olan insanlar xüsusi buraxılış sənədi ilə quru sərhədini keçə bilər. Elə insanlar var ki, yaşlı valideynləri Gürcüstanda qalıb. Təyyarə qiymətləri baha olduğundan gedib-gələ, onların problemlərini həll edə bilmirlər".

**Şəymən**

# Xoyda millətimiz ağır durumdadır

## İran rejimi güneyli soydaşlarımıza yardım etməyə imkan vermir




**İranda əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət olan Xoy şəhərində ötən ay baş verən zəlzələlərdən sonra dağıntıdan əziyyət çəkən əhalinin vəziyyəti acınacaqlı olaraq qalır. Soydaşlarımızın sözlərinə görə, dağıntıdan əziyyət çəkən əhalinin çoxu çadırlara sığınsa da, ciddi çatışmazlıq yaşanır. Üstəlik, havaların soyuması, qarın yağması azərbaycanlıların vəziyyətini daha da acınacaqlı edib. Bu səbəbdən, minlərlə əhalinin bir hissəsi bayırda gecələməyə, digər qismi maşınlarda qalmağa üstünlük verirlər.**

Ən pis halda isə Xoy şəhərini tərk etmək məcburiyyətində qalırlar. Humanitar yardım və isti əşyaların verilməsində də çatışmazlıq hiss olunur. Xoy sakinləri deyiblər ki, kiçik yeraltı təkanlar davam edir və bu da əhalini qorxudur: "Əhalinin əksər hissəsi humanitar çatışmazlıq və baş verən zəlzələlər üzündən psixoloji sarsıntı yaşayırlar". Təbii fəlakətin baş verməsindən xeyli vaxt keçməsinə baxmayaraq, İran hökuməti soydaşlarımıza heç bir yardım göstərmir. Çadır, isti geyim və qidaya olan tələbat ödənmir, insanlar arasında kütləvi xəstəliklər yayılır. Xəstəxanalarda tibbi heyət və dərman çatışmazlığı var. İran mediası da Xoyda zəlzələdən zərərçəkənlərin problemlərini işıqlandırmaqdan imtina edir. Qeyd edək ki, Azərbaycan dövləti Xoyda zəlzələdən zərərçəkmiş soydaşlarımıza hər cür yardım göstərməyə hazırdır və buna bütün resurslar da var. Lakin İran dövləti Azərbaycanın bu yardımı soydaşlarımıza çatdırmasına mane olur. Türkiyənin Qızıl Ay Cəmiyyətinin açıqlamasına görə, İran onların da yardım təklifini geri çevirib.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə açıqlamasında bildirib ki, yaşanan hadisələr göstərir ki, İran hökuməti zəlzələdən zərər çəkən soydaşlarımızın əziyyət çəkməsini, məhv olmasını istəyir. Partiya rəhbərinin sözlərinə görə, rejimin soydaşlarımıza qərəzli davranış sərgiləməsinin başqa məntiqi izahı yoxdur:** "İran özü yardım etmir, köməklik etmək istəyənlərə də imkan vermir. Hətta özü yardım etmiş olsa belə, başqasının dəstəyi geri çevrilməməlidir ki, ehtiyac daha tez ödənsin. Bütün dünyada belədir. Xoyda zəlzələ nəticəsində dağıntıların daha çox olmasının səbəbi İran rejiminin Azərbaycan bölgələrinə ögey münasibətinin nəticəsidir. Əyalətdəki yaşayış evləri, binalar tamamilə sıradan çıxmış, köhnə vəziyyətdədir və zəlzələyə davamsızdır. Camaat da yoxsul durumdadır. Uzun zamandır soydaşlarımızın yaşadıqları bölgələrdə heç bir inkişaf yoxdur. Böyük zavodlar və fabriklər tikməyiblər ki, azərbaycanlılar öz torpaqlarını tərk etsin, başqa yerlərə köçsünlər. Urmiyanı da o məqsədlə qurudurlar ki, əhali başqa yerə köçsün, ərazidə boş səhra görüntüsü yaransın. Bunun nəticəsində azərbaycanlılar yaşayan yerlərdə bufer "Kürdüstan dövləti" yaratsınlar. Xoydakı zəlzələdə zərər görən insanlara yardım göstərilməməsi də böyük İran siyasətinin tərkib hissəsidir".

**F.Quliyev İran rejiminin daha əvvəl də bu cür yanaşma sərgilədiyini xatırladıb:** "1990-cı illərin əvvəlində Zəncanda zəlzələ baş vermişdi. O vaxt mən Parlamentin üzvü idim. İxtisasca həkim olduğuma görə Naxçıvanda bir həkim komissiyası yaratdıq və yardım üçün Zəncana yollandıq. Yardıma gedən kollektivə rəhbərlik mənə həvalə olundu. Bizi hotellərdə yerləşdirib zəlzələ bölgəsinə buraxmaq istəmirdilər. Anlaşıldı ki, Zəncanda xeyli yaralı insan olsa da, onlara heç bir tibbi yardım göstərilməyib. Özləri etmədikləri kimi başqalarının da yardımına imkan verməyiblər. Gözləyirdilər ki, bir neçə gün keçsin, hamı ölsün, sonra traktorla dağılmış tikililəri sözün həqiqi mənasında şumlasınlar. Naxçıvandan olan tibb işçilərini yanıma alaraq özbaşına zəlzələ bölgəsinə getdik. Bizi saxlamağa cəhd göstərsələr də, ciddi etirazımızı bildirdik və yaralı soydaşlarımızın imdadına yetişdik. Eyni proses bu gün Xoyda başqa formada davam edir. Türkiyəni niyə yaxın buraxmırlar? Çünki Türkiyənin Xoya yardım aparması eyni etnosun nümayəndələri ilə yaxınlıq, onlara qucaq açmaqdır ki, İran rejimi bunu istəmir. Rejim insanların qafasını yuyaraq millətçilikdən ayırmaq, daha çox ümmət kimi tərbiyələndirmək siyasətini həyata keçirir. Digər məqsəd isə vurğuladığım kimi, azərbaycanlıların bölgəni tərk etməsinə nail olmaqdır. Ona görə qəsdən soydaşlarımıza zülm edirlər. Əgər zəlzələ fars bölgəsində olsaydı, İranın yanaşması tamam başqa olardı. Bu, Azərbaycan türklərinə olan münasibətin növbəti dəfə təzahürüdür. Mən dünyanın humanitar təşkilatlarını və ölkəmizdəki QHT-ləri, media nümayəndələrini güneyli qardaşlarımıza sahib çıxmağa səsləyirəm".

**İsmayıl Qocayev**

**Amerika Birləşmiş Ştatlarının Federal Təhqiqat Bürosu Prezident Co Baydenin evində axtarış aparıb. Baydenin vəkili Bob Bauerin açıqlamasına görə, axtarış səhər saatlarından günortayadək Ağ Ev rəhbərinin Delavera ştatındakı evində aparılıb.**



# Qocalar gedəcək

## ABŞ-də gənc siyasətçilərə siyasi səhnə hazırlanır, elita yenilənir

Axtarış nəticəsində Baydenin 2009-2017-ci illər aralığında vitse-prezident olduğu dövrə aid olan bəzi materiallar və əlyazmalar əlavə araşdırma aparılması üçün götürülüb. Axtarışların sabiq Prezident Donald Trampın bir açıqlaması əsasında aparıldığı iddia edilir. FTB hələlik axtarışla bağlı şərh verməyib və Bauerin dediyinə görə, əməliyyat təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə axtarış barədə əvvəlcədən ictimaiyyətə məlumat verilməyib. Qeyd edək ki, keçmiş Prezident Donald Tramp 2024-cü ildə ölkədə keçiriləcək seçkilərə qatılmaq niyyətindədir. Növbəti seçkilərə qatılmaq üçün daha qərarlı olduğunu deyən Tramp hazırkı Prezident Co Baydenin siyasətini tənqid etməkdədir. Onun sərhəd məsələləri, iqtisadi və sosial siyasətlə bağlı gördüyü işləri bəyənmədiyini söyləyən sabiq dövlət başçısı, özünün prezidentlik dövründə ölkədə həyata keçirilən layihələrdən misallar da çəkib. 2024-cü il seçkilərinin ABŞ-ni xilas etmək üçün yeganə şans olduğunu vurğulayan Tramp, ölkəsində Çinə müqavimət göstərə biləcək liderə ehtiyac olduğu fikri müdafiə edib. Baydenin evində axtarış aparılmasının da seçki mübarizəsi olduğu iddia olunur.

**Politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, FTB sadəcə, indiki prezidentin deyil, eyni zamanda Donald Trampın, sabiq vitse-prezidentin və başqalarının evində də axtarışlar aparıb. Analitikə görə, görünən odur ki, bu insanlar vəzifədə olduqları dönəmlərdə məxfi sənədlərlə bağlı üzərlərinə götürdükləri öhdəlikləri kobud şəkildə pozublar:** "Belə çıxır ki, Co Bayden də gizli sənədlərlə bağlı öhdəliklərinə əməl etməyib. Bu da ümumi siyasi elitanın problemidir. Yəni söhbət sadəcə Baydenin nüfuzuna, mövqeyinə xələl gətirməkdən getmir. Bütövlükdə onun təmsil olunduğu Demokratlar Partiyasından gedir. Onun partiyası rəqib siyasi təşkilatın hücumlarına məruz qalır. ABŞ-də illərdir belə bir siyasi müzakirələr gedir ki, elitanı yeniləmək lazımdır. Köhnə təfəkkürlü insanlar yenilərlə əvəzlənməlidir. Hazırda bu proses getməkdədir. Məsələn, Demokratlar Partiyasının aparıcı siyasətçilərinin, məsələn, Baydenin yaşı 80-dən yuxarıdır. Digərlərinin də yaşı 70-dən çoxdur. Əksəriyyəti uzun müddət Amerika siyasi bürokratiyasını təmsil edən insanlardır. ABŞ-nin siyasi sistemi elədir ki, Ağ Ev rəhbərlərinin xalqla ünsiyyəti minimum səviyyədədir. Konqres üzvlərini belə birbaşa xalq yox, seçici palataları seçir. Ona görə də yeni siyasətçilər həm Demokratları, həm də Respublikaçıları tənqid edirlər və hakimiyyətə can atırlar. Düşünürəm ki, Bayden və digərləri ilə bağlı axtarışlar, əməliyyatlar yeni və gənc siyasətçilər üçün siyasi səhnənin təmizlənməsidir".

**İsmayıl Qocayev**



# Türkiyənin hərbi bazasına hücum

## Molla rejimi Bakı-Ankara-Təl-Əviv üçlüsünə qarşı hibrid müharibə elan edib

**Türkiyə Ordusunun İraqın Mosul şəhərindəki Başika hərbi bazası artilleriya qurğuları ilə atəşə tutulub. Hücumun məsuliyyətini "Əhrar əl İraq" terrorçu qruplaşması öz üzərinə götürüb. Türkiyə Müdafiə Nazirliyi terror hücumu zamanı heç bir tələfatın olmadığını bildirib.**

*Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Türkiyə ordusunun Başika hərbi bazasına edilən hücum təsadüfi deyil. Düzdür, ilk dəfə deyil ki, Türkiyənin Şimali İraqdakı hərbi bazasına hücum edilir*. Misal üçün, "Əhrar əl-İraq" qrupu 2022-ci ildə Türkiyə hərbi qüvvələrinin olduğu Zlikan bazasına da edilən hücumu üzərinə götürmüşdü. Bununla belə budəfəki hücumun pərdəarxası bir çox məqamı var: "Məsələ ondadır ki, Türkiyə ordunun Başika hərbi bazasına edilən hücumun pərdə arxasında İran dayanır. Bunu təsdiq edən ən önəmli fakt hadisənin "Əhrar əl-İraq" qrupu tərəfindən törədilməsidir. "Əhrar əl-İraq" qrupu isə İran tərəfindən maliyyələşən "Haşdi Şabi" terror qruplaşmasına bağlıdır. İranı Türkiyə ilə bağlı bir çox məqam narahat edir. Birincisi, Türkiyənin İraqda hərbi varlığı və keçirdiyi antiterror əməliyyatları İranın Şimali İraq üzərindən Suriyaya, Livana və Fələstinə silah daşımasına ciddi maneə törədir. Xüsusilə qeyd etmək lazımdır ki, Başika hərbi bazası İranın qeyd edilən ölkələrə silah-sursat daşındığı əsas əraziyə yaxındır. İkincisi, rəsmi Ankaranın İsrail ilə yaxınlaşması, münasibətləri normallaşdırması Tehranı sözün əsl mənasında panikaya salıb. İran xarici siyasətinin prioritet istiqamətindən biri də Təl-Əviv-Ankara münasibətlərini daim gərgin saxlamaq, ehtimal yaxınlaşmaların qarşısını almaqdır. Lakin son zamanlar iki ölkə arasında Azərbaycanın vasitəçiliyi, eyni zamanda diplomatik fəaliyyəti ilə baş tutan yaxınlaşma İran maraqlarına uyğun deyil. Üçüncüsü, bir neçə gün öncə Azərbaycanın Tehranda səfirliyinə hücum edildi. Bu hadisə İranın molla rejimi tərəfindən həyata keçirildi. Hadisə sonrası rəsmi Bakıya hər zaman olduğu kimi Türkiyədən ciddi dəstək gəldi. Dövlət başçıları, rəsmilər səviyyəsində təmaslar quruldu, hadisənin yerindəcə dəyərləndirilməsi aparıldı. Məhz bu hadisə sonrasında Türkiyənin İraqda hərbi bazasında İran tərəfindən dəstəklənən terror qrupunun hücum etməsi Tehranın Ankaranın bu məsələdə mövqeyindən narahat olduğunu göstərir".

**Analitik qeyd edib ki, Türkiyə hərbi bazasına edilən hücumu, Azərbaycan səfirliyinə qarşı törədilən teraktın və İsraildə sinaqoqda baş tutan terror hadisəsinin davamı kimi qiymətləndirmək olar:** "Bu, faktiki olaraq bir daha onu sübut edir ki, molla rejimi Bakı-Ankara-Təl-Əviv üçlüsünə qarşı hibrid müharibə elan edib. Hər üç hadisənin motivi fərqli olsa da, məğzi eynidir. Türkiyəni bu tip hücumlar ilə qorxutmaq mümkün deyil. Rəsmi Ankara bu hücuma misli ilə cavab verəcək. Bunu Türkiyə milli müdafiə naziri Hulusi Akarın son açıqlaması, ən son terrorçu zərərsizləşdirilənə kimi mübarizənin davam edəcəyini vurğulaması da təsdiqləyir. Türkiyə İraqda keçirdiyi antiterror əməliyyatlarının miqyasını gücləndirə, "Həşdi-Şabi" və ona bağlı "Əhrar əl-İraq" qruplarına aviasiya zərbələri endirə bilər".

**İsmayıl Qocayev**

# Lombard fəaliyyəti ilə bağlı risklər azalacaq

## Qanundan sonra lombardlar Mərkəzi Bankın icazəsi ilə fəaliyyət göstərməli olacaqlar

**Millət vəkili Vahid Əhmədov Parlamentin sonuncu iclasında növbəti dəfə "Lombardlar haqqında" qanun layihəsindən danışıb. Deputat 2019-cu ildən bu yana müzakirə olunan, lakin qəbul edilməyən qanun layihəsinin qəbulunun vacib olduğunu bəyan edib: "Lombardlar haqqında" qanun layihəsi üzərində müəyyən təzyiqlər var. İstəmirlər ki, biz bu qanunu qəbul edək. Mən başa düşürəm ki, lombardlarla əlaqədar olaraq maraqlar kifayət qədər böyükdür.**



Amma bu qanunun qəbulu çox vacibdir. Biz lombardların sayını belə bilmirik. Onlara lisenziyaların verilməsi, qeydiyyata alınması vacibdir". Ekspertlər də hesab edirlər ki, lombardların fəaliyyətinin qanunvericilik baxımından təkmilləşdirilməsi vətəndaşların hüquqlarının qorunması üçün zəruridir. Çünki əksər hallarda girovların geri qaytarılması ilə bağlı ciddi narazılıqlar var. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi lombardlar üzərində dövlət nəzarətinin sistemləşdirilməsinə imkan verəcək. Əgər lombard qanunlar çərçivəsində normal qaydada işləsə, bu, onlara olan etimadı da artıracaq. Həmçinin lombardlar vətəndaşlar üçün daha əlçatan olacaq.

**Deputatın gündəmə gətirdiyi məsələni "Şərq"ə dəyərləndirən iqtisadçı Rəşad Həsənov deyib ki, faktiki olaraq tənzimlənməyən bir sahə var. Ekspert qeyd edib ki, mövcud qanunvericilik lombardların fəaliyyətinin sadəcə sahibkar olaraq qeydiyyatdan keçməklə işləməsinə imkan yaradır:** "Bu da öz növbəsində riskləri artırır, çünki bu, maliyyələşmə sahəsidir. 2015-ci ildən sonra bu sahə daha da aktivləşib. Səbəbi bank sistemində yaranmış problemlər, bankların kredit vermə siyasətinin dəyişməsi, mexanizmlərin sərtləşməsi, vətəndaşların "problemli müştəriyə" çevrilməsi və s. idi. Lombardların çoxalmasına bunlar şərait yaratdı. Bütün maliyyə xidməti göstərən sahələr qanunla tənzimləndiyi, sosial sığorta bazarı, kredit bazarı, bank bazarı formalaşdığı halda lombardlarda heç bir hüquqi tənzimlənmə yoxdur. Bunun nəticəsində nə baş verdi? İnsanların hüquqları pozuldu, aktivlər dəyərindən aşağı qiymətləndirildi, kreditlərin geri qaytarılmasında problemlər yarandıqda heç bir hüquqi proses olmadan aktivlər aşağı dəyərlə bazara təklif olundu, yaxud lombard sahibləri tərəfindən mənimsənildi. Hətta elə olurdu ki, insanların bahalı zinət əşyalarını daha aşağı qiymətlərlə toplayıb, bir müddət sonra fəaliyyətini dayandıran müəssisələr də oldu. Yəni aradan çıxdılar. Qeyd edək ki, indiki halda toplanmış aktivlərlə bağlı da heç bir tələb yoxdur. Bu da insanların aktivlərinin zərər görməsinə, keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Yəni bu sahədə münasibətlərin tənzimlənməməsindən qaynaqlanan çoxlu sayda hüquq pozuntuları var".

**R.Həsənov vurğulayıb ki, yeni qanun bir sıra istiqamətlərdə tənzimləmələr gətirəcək:** "İlk növbədə qanun lombard fəaliyyətini icazəli, lisenziyalı fəaliyyət növünə çevirəcək. Qanundan sonra lombardlar Mərkəzi Bankın icazəsi ilə fəaliyyət göstərməli olacaqlar. Hesabatlılıq yaranacaq, ehtiyat normaları, nizamlama kapitalı ilə əlaqədar tələblər irəli sürüləcək, risklər qismən azalacaq. Digər tərəfdən sığorta mexanizmi təşkil olunacaq və lombardlar qarşısında bir sıra başqa öhdəliklər qoyulacaq. Akitvlərin qorunması, təhlükəsizlik tədbirlərinin görülməsi, ehtiyac yarandıqda bankların müvafiq xidmətlərindən istifadə edilməsi və s. məsələlər də təklif olunan qanun layihəsində əks olunub. Eyni zamanda faizlərlə bağlı da müəyyən limitləndirmə, yuxarı həddin təyin olunması ilə bağlı mövqe var.

Bağlanan müqavilələr mütləq mərkəzi reyestr xidmətində və kredit bürolarında qeydiyyata düşməlidir ki, tərəflər arasında mülki münasibət formalaşsın. Bu da vətəndaşlara imkan verir ki, hüquqları pozulduqda məhkəmələrə üz tuta bilsinlər".

**İsmayıl Qocayev**

# 46 gənc AzTV-də işlə təmin olunub




**2022-ci ildə 46 gənc "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də işlə təmin olunub.**

QSC-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, onlardan 8-i Teleradio Akademiyasının məzunudur.

Digər 38 nəfər isə müxtəlif vakansiyalar üzrə müraciət edərək müsahibələrdən uğurla keçənlərdir.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC olaraq hər zaman gənc kadrlara dəstək olmağa hazırıq.

*Qeyd edək ki, 2022-ci ildə ümumilikdə 138 nəfər "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də işə qəbul edilib.*



# Qripə yoluxan şagirdlərin sayı artır

## Paytaxtdakı ümumtəhsil müəssisələrində davamiyyət isə normaldır

**Uşaqlar və yeniyetmələr arasında yüksək hərarətlə müşahidə edilən xəstəlik yayılmaqdadır.**

Eyni zamanda, əhalinin digər təbəqələri arasında da yoluxanların sayı kifayət qədərdir. Xəstəlik ötən ayın əvvəlindən əhali arasında müşahidə olunur. Uşaqdan-böyüyə hər kəs virusa yoluxduğunu, xəstəliyi ağır keçirdiyini bildirirlər. İnfeksionistlər isə deyirlər ki, xəstəliyin əsas əlamətləri yüksək hərarət və öskürəkdir. Təbii ki, belə bir vəziyyətdə, uşaqlar arasında xəstəliyin sürətlə yayılması tədris prosesinə də təsirsiz ötüşmür. Valideynlər övladlarını məktəbə göndərmək istəmir, virusa yoluxacaqlarından ehtiyat edirlər.

Bəs, Bakı məktəblərində şagirdlər arasında davamiyyət necədir?

Bakı Şəhər Təhsil İdarəsindən Bakupost.az -ın sorğusuna cavab olaraq bildirilib ki, şagirdlər arasındakı davamiyyət hər zaman olduğu kimidir.

"Gündəlik monitorinqlər aparılır, ümumi statistikada fərq yoxdur. Kəskin hava şəraiti olan, qar yağan günlər istisna olmaqla elə bir ciddi fərq yoxdur. Bu günə olan tarixə əsasən paytaxtdakı ümumtəhsil müəssisələrində davamiyyət normaldır", -deyə BŞTİ-dən deyilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**

# Kibertəhlükəsizlik üzrə qış düşərgəsi fəaliyyətə başlayır

## Əsas məqsəd İKT üzrə kadrların yetişdirilməsini sürətləndirməkdir



**Dövlət Gömrük Komitəsinin Akademiyası, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin "Technest" Təqaüd proqramı və "Coders Azerbaijan"ın birgə təşkilatçılığı ilə "Winter Cyber Security Camp 2023" layihəsinin açılış mərasimi keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Rəqəmsal sərişətlərin inkişafi departamentinin rəhbəri Fatimə Ələkbərova, Dövlət Gömrük Komitəsinin Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi İnformasiya sistemləri və texnologiyalar idarəsinin rəisi Eşqin Məmmədov, "Coders Azerbaijan"ın həmtəsisçisi və idarə heyətinin üzvü Seymur Həmidov, tərəfdaş qurumların nümayəndələri, Akademiyanın əməkdaşları və tələbələri iştirak ediblər.**

Tədbirin açılış mərasimində çıxış edən Akademiyanın rəisi Qulu Novruzov təşkil edilən layihənin önəmindən söz açaraq rəqəmsallaşmanın geniş vüsət aldığı bir dövrdə istər ölkəmiz, istərsə də bütün dünyada kibertəhlükəsizlik sahəsində görülən işlərin getdikcə daha mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Q.Novruzov Akademiyanın tərəfdaşı "Coders Azerbaijan"la qurulan səmərəli əməkdaşlıq əlaqələrinin inkişafından danışaraq, layihənin təşkilində əməyi keçən hər bir kəsə təşəkkür edib. Akademiya rəisi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və cənab Prezident İlham Əliyev tərəfindən uğurla reallşdırılan inkişaf konsepiyasının davam etdirilməsində dövlətimizin savadlı və bacarıqlı gənclərə ehtiyacı olduğunu vurğulayaraq, layihəyə seçilən Akademiya tələbələrini təbrik edib və onlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin departament rəhbəri Fatimə Ələkbərova tələbələri qarşıdan gələn 2 fevral - Gənclər Günü münasibətilə təbrik edərək "Technest" təqaüd proqramı barəsində ətraflı bəhs edib. O, proqramın əsas məqsədinin İKT üzrə ölkədə kadrların yetişdirilməsini sürətləndirmək, bu sahədə mövcud boşluqları aradan qaldırmaq və ölkədə rəqəmsal inkişafa töhfə vermək olduğunu qeyd edərək, gələcəkdə də Gömrük Akademiyası ilə birgə əməkdaşlıq əlaqələrinin daha da genişləndiriləcəyinə əminliyini vurğulayıb. Daha sonra çıxış edən Dövlət Gömrük Komitəsinin İdarə rəisi Eşqin Məmmədov informasiya texnologiyalarının tətbiqi sahəsində gömkük orqanlarında həyata keçirilən islahatlardan söz açaraq tələbələrə İT sahəsi üzrə bilik və bacarıqlarının artırılmasına dair öz tövsiyələrini verib. "Coders Azerbaijan"ın həmtəsisçisi və idarə heyətinin üzvü Seymur Həmidov isə təmsil etdiyi qurumun məqsədinin sənaye sektoru ilə təhsil sektorunu bir araya gətirərək İT sahəsi üzrə peşəkar kadr hazırlamaq olduğunu qeyd edərək, layihənin dəstəkçilərinə minnətdarlığını bildirib. Daha sonra tədbir iştirakçılarına layihə və tədris proqramı barəsində ətraflı məlumat verilib. Sonda Akademiyanın layihəyə seçilən 20 nəfər tələbəsinə hədiyyələr təqdim olunub. Qeyd edək ki, 1-14 fevral 2023-cü il tarixlərini əhatə edən düşərgə çərçivəsində iştirakçılar intensiv tədrisdə iştirak edərək həm nəzəri, həm də praktiki bilik və bacarıqlar qazanacaq və təlimin yekununda qruplar şəklində layihə hazırlayıb təqdim edəcəklər.

**Təhsil məsələləri üzrə ekspert Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında bu cür layihələrin ixxtisaslı gənc kadrların yetişməsində böyük əhəmiyyət daşıdığını bildirib:**

- Müsbət haldır ki, hazırda bir çox ali təhsil müəssisələri müasir çağırışlara diqqət yönəltməyə başlayıb. Şahidi oluruq ki, bir sıra ali təhsil müəssisələri ayrı-ayrı qurumlarla əməkdaşlıq edir, tələbələrin təhsil aldıqları ixtisaslara uyğun təcrübə qazanmaları üçün müxtəlif layihələrdə iştiraklarını təmin edirlər. Xatırlayıram ki, Azərbaycan Dövlət İqtisad Universiteti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzi ilə birlikdə "Gələcək üçün bacarıqlar" layihəsinə qoşulmuşdu. Layihə icra edildiyi müddətdə iştirakçılara biznes, sahibkarlıq, innovasiya menecmenti, layihələrin idarəetmə prinsipləri, startap məhsulunun inkişafı, İT, arxitektura və mühəndislik, komandanın idarəolunması, startapın maliyyələşdirilməsi və biznesə start, effektiv ünsiyyət bacarıqları və kommunikasiya kimi istiqamətlərdə təlimlər həyata keçirilib. Bu, ixtisaslaşma proqramı idi və tələbələrin iştirakı ilə xüsusi təlimləri əhatə edirdi. Belə layihələr tələbələrin daha çox bilik və təcrübə əldə etməsinə yardımçı olur. Tələbələr uyğun ixtisaslar üzrə müasir bilik və bacarıqların əldə edilməsi istiqamətinə yönləndirilir. Belə layihələr kadr potensialının artmasına xidmət edir. İnnovativ ideyaların inkişaf etdirilməsi üçün təhsil prosesində tələbələrə dəstək göstərilməsi və tələbələrin ölkənin texnoloji inkişafında önəmli rol oynayan kəşf, ixtira sahəsinə yönləndirilməsi vacibdir. Dövlət Gömrük Komitəsinin Akademiyası, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin "Technest" Təqaüd proqramı və "Coders Azerbaijan"ın birgə təşkilatçılığı ilə keçirilən "Winter Cyber Security Camp 2023" layihəsi də bu qəbildəndir. Tələbələrin rəqəmsallaşma, kibertəhlükəsizlik, İKT sahəsində bilik və təcrübə əldə etməsi günümüzün vacib şərtlərindəndir. Hazırda bütün dünyada proqramlaşdırma, robototexnika, eləcə də kibertəhlükəsizlik mütəxəssisi öndə gedən ixtisaslardır. Kibertəhlükəsizliyin təmin edilməsi gömrük sistemində də vacibdir. Bizim tələbələr də bu biliklərə yiyələnməli, vacib olan vərdişləri əldə etməlidirlər. Müsbət haldır ki, ixtisaslı kadr potensialının formalaşması məqsədilə müxtəlif strukturlar ali təhsil ocaqları ilə əməkdaşlığa can atır.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# 35 yaşınadək dövlət qulluğunda çalışanların sayı 50 faizə qaldırılacaq

## Gənclik təşəbbüs, enerji, böyük həvəs, hadisələrə yeni baxış deməkdir

**Hazırda Azərbaycanda dövlət qulluğunda çalışanların 18 faizi 30 yaşa qədər olan şəxslərdir. Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin sözlərinə görə, bu say kifayət qədər yaxşıdır: "Dövlət qulluğunda çalışan 35 yaşa qədər olan şəxslər ümumilikdə 36 faiz təşkil edir. Bu da özlüyündə yüksək rəqəmdir.**

Gələn 3 il ərzində 35 yaşınadək dövlət qulluğunda çalışanların sayının 50 faizə qaldırılması planlaşdırılır. Biz bu istiqamətdə əlimizdən gələni edəcəyik. Həmin kadrların kifayət qədər gənc olduğunu nəzərə alsaq, qeyd edə bilərik ki, bu hal dövlət qurumlarının işinə də öz müsbət təsirini göstərəcək".



**"Azərbaycanda gənclərin öz potensiallarını reallaşdırmasına dövlət geniş imkanlar yaradır"**

**Millət vəkili Kamilə Əliyeva isə "Şərq"ə açıqlamasında deyib ki, gənclərimizin ölkənin siyasi, sosial-iqtisadi sahələrində mühüm vəzifələrə təyin olunması, onlara böyük etimad göstərilməsi Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin davamıdır:** "Azərbaycan Sovetlər Birliyinin tərkibində olduğu zaman Ulu Öndər Heydər Əliyev minlərlə gənci keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərmişdi. Həmin gənclər bu gün ölkəmizdə müxtəlif sahələrdə savadlı və təcrübəli mütəxəssis kimi dövlətimizə böyük fayda verməkdədirlər.

1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışından sonra gənc nəslə diqqəti dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdi. Gəncləri "Azərbaycanın gələcəyi" adlandıran Heydər Əliyev onlara hər zaman qayğı göstərməyin vacibliyini qeyd edirdi. Müasir dünyada güclü demokratik dövlət quruculuğunda gənclərin rolunu düzgün qiymətləndirən Ulu Öndər bütün sahələrdə onlara böyük etimad göstərirdi. Dövlət orqanlarında gənclərin fəaliyyətinin genişləndirilməsi və onları bir-biri ilə əlaqələndirmək məqsədilə Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılıb.

Azərbaycan gəncliyinin inkişafında və gənclərin dövlət qurumlarına inteqrasiya olunmasında Ulu Öndərin böyük xidmətləri olub. 1997-ci il fevralın 2-də Azərbaycanda "Gənclər Günü"nün elan oluması ilə bağlı Fərman bu sahədə atılan növbəti addım oldu.

Gənclər hərəkatının təşkilatlanması istiqamətində dövlət dəstəyinin göstərilməsi ilə bağlı Ulu Öndər Heydər Əliyevin imzaladığı fərman və sərəncamlar, həyata keçirdiyi tədbirlər gəncliyin inkişafında mühüm əhəmiyyət kəsb edib.

Heydər Əliyevin imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərmanı Azərbaycanda gənclərin hərtərəfli inkişafı üçün daha əlverişli şərait yaradıb. Sənəddə Gənclər və İdman Nazirliyi nəzdində gənclərin problemləri üzrə elmi araşdırmaların aparılması mərkəzinin yaradılması nəzərdə tutulurdu".

**Ulu Öndər Heydər Əliyevin gənclərlə bağlı fikirləri və onun yaratdığı fəlsəfi ideyaların bu gün də aktual olduğunu vurğulayan millət vəkili deyib ki, müdrik şəxsiyyətin əsasını qoyduğu bu siyasi kursu hazırda Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilir:** "Möhtərəm Prezidentimiz dövlət tərəfindən gənclərin rifahına xidmət edən bir sıra dövlət proqramlarını təsdiq edib. Dövlət başçımız 2007-ci ili "Gənclər ili" elan edib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və 2019-2023-cü illər üzrə Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə dövlət proqramları nəticəsində bu günə kimi 5000-dən artıq gəncimiz dünyanın ən nüfuzlu ali məktəblərində təhsil alıb.

2013-cü il iyulun 2- də Prezident İlham Əliyev tərəfindən ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis edilib. Bu qərar gənclərə dəstək verilməsi yönümündə mühüm əhəmiyyət kəsb edib. Ölkə başçısı gənclərlə bağlı, onların dövlətimizin gələcəyi naminə daha böyük işlər görmələri üçün çox sayda qərarlar qəbul edib.

Məhz Prezident İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclərin qəhrəmanlığı nəticəsində torpaqlarımız işğaldan azad edilib. Vətən müharibəsində canından keçənlərin, şəhidlik zirvəsinə ucalanların əksəriyyəti gənclərimizdir. Bu, müstəqil Azərbaycan dövlətinin inkişafında gənclərimizin xidmətini təsdiqləyən növbəti nümunənin təzahürüdür.

Azərbaycanda gənclərin öz potensiallarını reallaşdırmasına dövlət geniş imkanlar yaradır. Gənclik təşəbbüs, enerji, böyük həvəs, hadisələrə yeni baxış deməkdir. Bu gün gənclər ictimai həyatın ən müxtəlif sahələrində öz potensiallarını gerçəkləşdirmək imkanlarına malikdirlər.

Çünki müasir Azərbaycan gənclərinin dünyagörüşü daha fərqlidir, dünyada gedən proseslərə yaxşı bələddirlər, eləcə də yüksək analiz etmək qabiliyyətinə malikdirlər.

Azərbaycan gənclərinin inkişafına, müxtəlif sahələrdə nəaliyyətlər əldə edən gənclərə Heydər Əliyev Fondu və Fondun prezidenti Mehriban xanım Əliyeva tərəfindən misilsiz dəstək göstərilir. Elm, təhsil, səhiyyə, mədəniyyət, ekoloji sahələrə aid proqram və layihələr hazırlanaraq həyata keçirilir. Heydər Əliyev Fondu ölkəmizdə yanaşı xaricdə yaşayan tanınmış, öz yüksək bilik və qabiliyyəti ilə seçilən müvəffəqiyyət qazanmış gənc həmvətənlərimizə də böyük diqqət ayırır. Xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil edir, ölkənin yaradıcı və elmi potensialının artırılmasına böyük köməklik göstərir".

**Şəymən Bayramova**

# Müəllimlik peşəsinə hələ də axın var

## Ən yüksək bal toplayanlar bu ixtisası seçirlər, çünki maaşlar normaldır



**500-dən çox bal toplayaraq müəllimlik ixtisasını seçənlərin illər üzrə statistikası açıqlanıb. Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov məlumat yayıb.**

Onun sözlərinə görə, ötən il 500-dən çox bal toplayaraq müəllimlik ixtisasını seçənlərin sayı 1276 olub. Əvvəlki illərə nəzər saldıqda isə bu rəqəm 2018-ci ildə 845, 2019-cu ildə 1097, 2020-ci ildə 902, 2021-ci ildə 916 olub.

Ekspertlər müəllimlik ixtisasına marağın artmasını müxtəlif səbəblərlə əsaslandırırlar. Bəziləri diaqnostik qiymətləndirilməni, digərləri müəllim maaşının artdığını, başqaları repetitorluq fəaliyyətinin gücləndiyini nümunə göstərir.

**Təhsil eksperti Nadir İsrafilov isə "Şərq"ə açıqlamasında deyib ki, bu artım strateji hədəf kimi müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması və müəllim peşəsinin nüfuzunun artırılması zəruriliyinin önə çəkilməsi ilə bağlıdır:** "Azərbaycanda müəllimyönümlü siyasət yürüdülməsinə başlanılıb. Əvvəlki onilliklərlə müqayisədə müəllimə olan inam və etibar nəzərəçarpacaq dərəcədə azalmışdı.

***Nadir İsrafilov: "Son illər müəllim hazırlığı və müəllim əməyinə qiymət verilməsi istiqamətində müəyyən addımlar atılıb"***

Elmi-texniki tərəqqi, yüksək texnologiyaların insani münasibətlərin önünə keçməsi əsas bilik ötürücüsü kimi müəllim faktorunu da böyük ölçüdə arxa plana keçirmişdi. Son illər müəllim hazırlığı və müəllim əməyinə qiymət verilməsi istiqamətində müəyyən addımlar atılıb və bu sahədə davamlı işlər uğurla davam etdirilir".

**N.İsrafilov deyir ki, ixtisaslar üzrə ali məktəbə qəbul prosesi repetitorların artmasına rəvac verib:** "Ali məktəblərə qəbul prosesinin ixtisas qrupları üzrə aparılması müəllimə alternativ "yeni peşə sahiblərinin" - repetitorların, markerlərin, hətta el arasında deyildiyi kimi, "bunker repetitorlarının" dəbə minməsinə və bunların müştərilərinin də xeyli sayda artmasına rəvac verib.

Müəllimlərin öz işinə daha da sevgi və məsuliyyətlə yanaşmasına şərait yaratmaq məqsədilə, hələ 2014-cü il sentyabrın 15-dən "Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin 2010-cu il 14 aprel tarixli 67 nömrəli qərarında dəyişiklik edilib. Müəllim peşəsinə marağı artırmaq üçün Təhsil Nazirliyi tərəfindən 2014-2015-ci tədris ilindən başlayaraq "Gələcəyin müəllimi təqaüdü" təsis edilib. Bu təqaüd pedaqoji kadr hazırlığı aparılan ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500 və daha yüksək bal toplayan, ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını qeyd edən tələbələrə şamil olunur. Müəllim əməyinin stimullasdırılması, əməkhaqqına differensial yanaşma istiqamətində müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilib və s. O da vacib amillərdəndir ki, müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində Təhsil Nazirliyi iki istiqamətdə iş aparır: birinci istiqamət mövcud ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və müəllim heyətinin keyfiyyətinin yaxşılaşdırılmasıdır. İkinci istiqamət isə pedaqoji kadr hazırlığı həyata keçirən ali təhsil müəssisələrində ilkin müəllim hazırlığının təkmilləşdirilməsidir. Bu kimi misalların sayını artırmaq da olar".

**Şəymən**

# Meyxanaçılar İrana "işləyir"?



## Tural Cəfərov: "Onların arasında mütləq İran casuslarının olduğunu düşünürəm"

## Kərim Abi: "Fazil Mustafanın tanıdığı elə bir adam varsa, onu tapıb cəzalandırsınlar"

**"Hazırda Azərbaycanda xüms adı ilə milyonlarla pul yığılaraq İrana göndərilir".**

**Bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa bildirib.**

Deputat deyib ki, İran şəbəkələrinə üzvlər bu ölkəyə ziyarətlərə gedənlər arasından seçilir.

"Xüsusilə də qadınlar arasında çox böyük şəbəkələr var. Bunun qarşısını almaq lazımdır. Eyni zamanda yas yerlərində qaydalara, daha sonra meyxanaçılara xüsusi diqqət yetirilməlidir. Bu məsələlər qanunvericilik səviyyəsində həll olunmalıdır ki, həmin qüvvələr ölkədə fəallaşa bilməsinlər", - deyə o, əlavə edib.

Millət vəkili təklif edib ki, Azərbaycandan İrana edilən dini ziyarətləri qanunvericilik səviyyəsində nəzarətdə saxlamaq lazımdır.

**Mövzuya münasibət bildirən tanınmış yazıçı Tural Cəfərov (Qan Turalı) "Şərq"ə bildirib ki, kimin agent olduğunu müəyyənləşdirmək hüquq-mühafizə orqanlarının işidir:** "Lakin onların arasında mütləq İran casuslarının olduğunu düşünürəm. Çünki görürük ki, bəzi meyxanaçılar şiəlik adı altında İran təbliğatı ilə məşğul olurlar. Hətta aralarından bəziləri "Mən Ayətullahlara xidmət edirəm" sözünü deməkdən belə çəkinmir. Digər tərəfdən sual yaranır ki, niyə meyxanaçıların hamısı şiə məzhəbindəndirlər? Bunu təkcə region amilləri ilə bağlamaq olmaz. Meyxana əsasən aşağı təhsilli insanlar arasında yayılır və onların beyinlərini yumaq daha asandır".

**Gənc meyxanaçı Kərim Abi isə qeyd edib ki, bəziləri hadisənin içində olmadıqları üçün düzgün dəyərləndirmə edə bilmirlər:**

"Hansı dünyada yaşayırıq? Meyxanaçıların hər biri müharibə dövründə əsgərlərimizin yanında idilər. Hansı ara gedib İrana işlədilər? Sadəcə boş söhbətlərdir. Onlar elə başa düşür ki, bir nəfər şiədirsə, gedib İrana casusluq edəcək. Azərbaycanda əgər agent varsa da, peşəyə heç bir aidiyyəti yoxdur. Bu yaxınlarda bir nəfər "KamAZ" sürücüsünü həbs etmişdilər casusluğa görə. O deməkdir ki, bütün "KamAZ" sürücüləri İran agentidir? Əgər kiminsə içində belə bir istək varsa, peşənin heç bir önəmi yoxdur. Mənim tanıdığım meyxanaçılar arasında İrana işləyənlər yoxdur. Əgər kimsə Allahdan meyxana deyirsə, onu İrana aid etmir. Fazil Mustafa bilmirmi ki, İranda islam inqilabı olmazdan qabaq Azərbaycan xalqı ibadətlə məşğul idi. Yox əgər, həqiqətən də, tanıdıqları elə bir adam varsa, onu tapıb cəzalandırsınlar".

**Nihat Müzəffər**




# "Nar" Gənclər Gününə həsr olunmuş tədbirdə iştirak edib

**2 fevral Gənclər Gününə həsr olunmuş Tələbə Gənclər Təşkilatlarının "ReBrend" Forumu keçirilib.**

110 nəfər gənc lideri özündə birləşdirən tədbirin məqsədi TGT-lər üçün optimal PR həlləri və bu sahədəki zəngin təcrübəni paylaşmaq olub. Peşəkarların öz təcrübələrini bölüşdüyü tədbirdə "Nar"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Əziz Axundov "Müasir dövrün çağırışlarına cavab verən PR strategiyaları" mövzusunda çıxış edərək gəncləri maraqlandıran sualları cavalandırıb.

Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə keçirilən forumda mütəxəssislərin vörkşoplarından əlavə, gənc liderlərə müxtəlif nominasiyalar üzrə mükafatlar da təqdim edilib.

Qeyd edək ki, ölkənin maariflənməsinə hər zaman öz töhfəsini verən "Nar" təhsil və inkişafa yönəlik layihələr həyata keçirir. Bu layihələrlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.

*"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*



# Qeyri-rezidentlər xaricdə oturub biznesini idarə edə bilmir

**Fərhad Mehdiyev:** "Düşünün, Çin vətəndaşı bank hesabı açdırmaq üçün iş-gücünü atıb Azərbaycana gəlməlidir"

***"Mənasız və zərərli məhdudiyyətlər tezliklə ləğv olunmalıdır"***

**"Notarial hərəkətlərin aparılmasında biznes üçün çətinlik yaradan məqamlar olur. Bu məqamlardan biri də qeyri-rezident xarici vətəndaşların təsisçi kimi çıxış etdikləri şirkətin qurulmasıdır. Bank hesabının açılmasında imza təsdiqi tələb olunur". Bu sözləri Fərhad Mehdiyev deyib.**

Professor qeyd edib ki, şirkətin qeydiyyatdan keçirilməsi prosesi rahatdır, amma bank hesabı açılması məsələsində əldə etibarnamə olmasına rəğmən həm bank (Bank Respublika), həm də notarius deyir ki, adam qeyri-rezident olduğuna görə bura özü şəxsən gəlməlidir ki, imzasını təsdiq edək və bunsuz da hesab açıla bilməyəcək: "Düşünün, Çin vətəndaşı bank hesabı açdırmaq üçün iş-gücünü atıb Azərbaycana gəlməlidir. Halbuki bir dəfə gəlib etibarnamə verib gedib. Görünür, etibarnamənin nə olduğunu, nə işə yaradığını bizdə yaxşı başa düşmürlər. Nümayəndə vasitəsilə verilən sərəncamlara məhdudiyyət və nəzarət gətirmək olar, amma o hallarda ki məsələ şəxsiyyət hüquqlarına aid olsun və yaxud da etibarnamə verənin iradə sərbəstliyi barəsində sual yaransın. Qeyri-rezidentlər xaricdə oturub biznesini idarə etmək istəyir. Bunun üçün kiməsə etibarnamə verir. İndi biz xarici investor üçün münbit şərait yaratmaq istəyirik, ya yox? Ümid edirəm, bu cür mənasız və zərərli məhdudiyyətlər tezliklə ləğv olunar".

**Şəymən**

# Əhali spirtli içkilərin yararlılıq müddətindən xəbərsizdir

## Araqların saxlanma müddəti 1 il, konyaklar 3 il, şərablar isə 6 aydan artıq deyil



***"Gəncədə istehsal olunan şərabı Fransaya aparmışdım. 1 aydan sonra bildiriş gəldi, şərab qızıl medala layiq görülüb"***

**Saxta spirtli içkilərdən gələn təhlükə həmişə müzakirə mövzusu olub. Ölümə aparan "ləzzət"lərə prestijli restoranlarda, şadlıq evlərində, marketlərdə də rast gəlinir. Ən bahalı içki belə saxta ola bilər. Doğrudur, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) mütəmadi monitorinqlər keçirir. Saxta spirtli içkiləri müəyyənləşdirir. Yenə "saxta içki aşkarlandı" başlıqlı xəbərlər manşetləri bəzəyir.**

Bu dəfə Agentliyin əməkdaşları Bakı şəhəri, Yasamal rayonu, M.Xiyabani küçəsi, 33 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Rzayev Daşqın Sabir oğluna məxsus "025" marketdə yoxlama aparıb. Nəticədə saxtalaşdırma əlamətləri olan, qida təhlükəsizliyi sertifikatı və üzərində Azərbaycan dilində etiket məlumatları olmayan ümumilikdə 16 ədəd (2 ədəd 1 litrlik "Chivas Regal" əmtəə nişanlı viski, 2 ədəd 0.5 litrlik və 1 ədəd 1 litrlik "Absolut" əmtəə nişanlı vodka, 11 ədəd 0.5 litrlik "Organik Line" əmtəə nişanlı) spirtli içki aşkarlanıb. Hətta içkilərin bir qismində qablaşdırılmada istifadə olunan folqa və aksiz markası kustar üsulla sonradan yapışdırılıb. Qaimə və qida təhlükəsizliyinə dair rəsmi sənədlər isə mövcud olmayıb. Müayinələrin aparılması məqsədilə sözügedən məhsullardan nümunələr götürülüb. Aşkar olunmuş alkoqollu içkilərin satışı dayandırılıb və möhürlənərək dövriyyədən çıxarılıb.

Qeyd edək ki, 2022-ci ilin noyabr ayı ərzində həyata keçirilən yoxlamalar zamanı 8 ticarət obyekti və 3 ictimai iaşə müəssisəsində, ümumilikdə, 406 ədəd saxta alkoqollu içki müəyyənləşib.

**Həmin məhsulların satışı ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun qənaətincə, illərdir ki, ölkədə saxta içkilərin mövcudluğu barədə informasiyalar yayılır:** "Sözügedən sahədə ən parlaq işi Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi görüb. Onlar mütəmadi saxta məhsulları ifşa edirlər, həbslər həyata keçirirlər. Qanunauyğun olaraq daha radikal yollar seçirlər. Lakin digər dövlət orqanları sadəcə cərimələyirlər, sonra buraxırlar. Hazırda saxta içkilərin mövcudluğunun məsuliyyəti AQTA-nın üzərinə düşür. AQTA ictimaiyyətlə effektli işləyə bilsə, məsələyə son qoyular.

Agentliyin çatışmayan cəhəti mediada tirajlanan materialları təqib etməməsidir. İctimai Şuranın iclasında dəfələrlə bu məsələni qaldırmışam. Hətta AQTA-nın sədr müavini Rəşad Mafusova söyləmişəm ki, axşam televiziyada filan material yayımlanıb. Siz süjetin harda çəkildiyini öyrənmək istəmisiz? TV-yə materiala görə təşəkkür etmisiz? Cavab verir ki, təşəkkür etmədiyimizi hardan bilirsiz?! Sonra heç nə etmədikləri ortaya çıxır. Kütləvi İnformasiya Vasitələri, ictimaiyyət və dövlət nəzarət orqanları sinxron işləməlidirlər. Əks halda eyni durum təkrarlanacaq".

**E.Hüseynovun sözlərinə görə, əhali spirtli içkilərin yararlılıq müddətindən xəbərsizdir:** "Araqların saxlanma müddəti 1 ildən, konyaklar 3 ildən, şərablar 6 aydan artıq deyil. Təəssüf ki, Azərbaycanda spirtli içkilərin 95 faizinin üzərində buraxılma tarixi yazılsa da, son yararlılıq müddəti yazılmır. Ölkədə yaxşı spirtli içkilər də istehsal olunur. Gəncədə istehsal olunan şərabı Fransaya aparmışdım.

1 aydan sonra bildiriş gəldi, şərab qızıl medala layiq görülüb. Düzü, zavoda məlumat vermədim. Fransanın cənubunda, kənd təsərrüfatı zonasında zavodun zirzəmisinə enmişdik. Şərab və konyaklar 2 metr hündürlükdə palıd çəlləklərdə, xüsusi temperaturda, işıqda saxlanılırdı. Bizə "Danışmayın, şərab ayılar" demişdilər.

Saxta içkilərin üzərində bəzən aksiz markası olmur, yaxud saxtadır. Aksiz markanın gümüşü zolağı var. Çətinliklə görünən Azərbaycanın gerbi yerləşdirilib. Əhali buna fikir versin. Bütün hallarda istehlakçıları 1003 qaynar xəttinə, AQTA-ya məlumat verməyə çağırıram".

**Aygün Tahir**



# Aktyor 10 ildir qonorar ala bilmir

**"O kız" serialında rol alan Erkan Petekkayanın məhkəməsi 10 ildir davam edir.**

Axşam.az xəbər verir ki, aktyor rol aldığı serialın xaricə satılmasından ona düşən payı əldə edə bilmədiyi üçün "Endemol Medya" şirkətindən şikayətçi olmuşdu. Hakim araşdırmanın davam etdirilməsi səbəbiylə məhkəmə üçün yeni gün təyin edib.

Petekkayanın vəkili aktyorun almalı olduğu qonorarı açıqlayıb:

"2010-cu ildən bəri şikayətçi oluruq. 12-13 milyon lirə alacağımız var".

**Elan**

Dövlət Vergi Xidməti tərəfindən Muradlı Çingiz Akif oğluna verilmiş AR seriyalı, 053252 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Qanlı göl ətrafında park salınacaq

## Boş yerlərdə şirkətlər tərəfindən yaşayış binaları tikiləcək



**Qanlı göl ətrafında həyata keçirilən layihə çərçivəsində park salınması nəzərdə tutulur.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) Dövlət Ekoloji Ekspertiza Agentliyi İdarə heyətinin sədri Mirsalam Qənbərov bu gün keçirilən ictimai dinləmədə deyib.

"Qanlı göl ətrafında həyata keçiriləcək layihənin əsas üç istiqaməti var. Bundan əlavə, gölün və ətrafının reabilitasiyası, gölün təmizlənməsi, gölün su təchizatı ön plandadır. Həmçinin gölün əhatə dairəsində 6 hektarlıq sahədə şamlıq mövcuddur. Həmin ağaclar orada saxlanılmaqla park salınması planlaşdırılıb", - deyə M.Qənbərov diqqətə çatdırıb.

O qeyd edib ki, ərazidə boş olan yerlər də təqdim olunacaq, şirkətlər tərəfindən yaşayış binaları tikiləcək.

Həmçinin Bakının Yasamal rayonunda yerləşən "Qanlı göl"ün adının dəyişdirilməsi müzakirə edilib, "Yaşıl göl" və ya "Şamlı göl" adlandırılması təklif olunub.

# Bakıda narkotikə görə 46 nəfər saxlanıldı



**Xəzər Rayon Polis İdarəsi, eləcə də ərazi polis şöbə və bölmələrinin əməkdaşları tərəfindən yanvar ayı ərzində Mərdəkan, Türkan, Şüvəlan, Binə, Şağan qəsəbələri, həmçinin rayonun digər ərazilərində keçirilən silsilə əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi, kultivasiyası və satışı ilə məşğul olan ümumilikdə 46 nəfər saxlanılıb.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Həmin şəxslərdən külli miqdarda heroin, tiryək, marixuana və psixotrop maddə olan metamfetamin aşkar edilib. Saxlanılanlar narkotik vasitələri sosial şəbəkələrdə tanımadıqları əsasən İran vətəndaşlarından onlayn yolla şəxsi istifadələri ilə yanaşı paytaxt ərazisində satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktlarla bağlı toplanan materiallar Xəzər RPİ-nin İstintaq Şöbəsinə göndərilib. Xəzər rayonu ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulmaları istiqamətində polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 316

